RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 116 (8709) BAZAR, 6 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan növbəti beynəlxalq idman tədbirini yüksək səviyyədə keçirir



İdman ölkəsi kimi tanınan Azərbaycanda son illər dünya və Avropa miqyaslı onlarca yarış keçirilib. Beynəlxalq idman federasiyalarının qərarları ilə ölkəmizdə təşkil olunan hər bir turniri tələb olunan səviyyədə təşkil edən Azərbaycan hər dəfə tarixini möhtəşəm nailiyyətlərlə zənginləşdirib. Hazırda "Formula-1" Azərbaycan Qran-prisini artıq 5-ci dəfə qəbul edən Bakı bu günlərdə başqa bir mötəbər turnirin - Avropa futbol çempionatının 4 oyununa evsahibliyi edəcək.

### Turnirləri təşkil etməyin Azərbaycan modeli

Ümumiyyətlə, son altı ilə nəzər salanda görürük ki, ən böyük idman hadisələrindən biri, sözsüz ki, tarixdə ilk Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi idi. Ölkəmiz Oyunlara iki ildən bir qədər çox davam etmiş yüksək səviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə də möhürünü vurmuşdur. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman tədbiri keçirilməmişdi.

Nümunəvi təşkilatçılığı, olduqca möhtəşəm açılış və bağlanış mərasimləri ilə yadda qalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrilmişdi. 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu. Bir daha sübut etdi ki, ölkəmizdə həyata keçirilən idman siyasəti öz bəhrəsini verir.

Azərbaycan 2017-ci ildə də ənənəsinə sadiq qaldı. Həmin il mayın 12-22-də paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. İslam dünyasının idman həyatı üçün əlamətdar olan IV İslam Həmrəyliyi Oyunları böyük uğurla yekunlaşdı.

*Ardı 4-cü səh.*

# X.Ə.Qasımovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Xuraman Əkrəm qızı Qasımova "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2021-ci il*

# Azərbaycan dünyada tolerant və multikultural ölkə kimi tanınır

Tolerantlığın Azərbaycanda möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri var. Xalqımız bu gün də öz dəyərləri ilə dünyaya nümunədir. Bakının evsahibliyi etdiyi beynəlxalq tədbirlərin, simpozium və yığıncaqların, dünya çempionatlarının, "Formula-1" kimi möhtəşəm yarışların müxtəlif ölkələrdən olan iştirakçılarına və qonaqlara bir daha aydın olur ki, Azərbaycan multikultural dəyərlərə malik tolerant ölkədir.

Azsaylı xalqların da igid oğullarının iştirak etdiyi 44 günlük Vətən müharibəsinin Zəfər qələbəsinin yaratdığı yüksək əhvali-ruhiyyə ilə yaşanan Azərbaycan "Formula-1"in cari mövsümdə 6-cı mərhələsinin keçirilməsinə evsahibliyi edir. Prezident İlham Əliyev demişdir: "Formula-1" yarışının Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada tanıdılması üçün müstəsna əhəmiyyəti vardır. Beş yüz milyon tamaşaçı auditoriyası olan bu yarışa bütün qitələrdə baxmışlar və şəhərimizin gözəlliyini, insanlarımızın qonaqpərvərliyini bütün dünya görübdür".

Multikultural və tolerantlıq elementlərini özündə əks etdirən bu yarış dünyanın bütün xalqları və millətləri tərəfindən sevilir. Çünki bu kimi tədbirlər müxtəlif millətlərə və məzhəblərə mənsub insanların mədəni müxtəlifliyinin qorunmasına, inkişafına və harmonizasiyasına, habelə azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilib. Multikulturalizm tolerantlığın təcəssümüdür. Onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, zənginləşmə, idman yarışları, dostluq və əməkdaşlıq mümkün deyil. Multikulturalizmin əsasını tolerantlıq, milli birliklərin adət-ənənələrinə və bir-birinin azadlığına hörmət hissi təşkil edir.

*Ardı 6-cı səh.*

# «Şahdəniz» - dəniz yataqlarının «şah»ı

## Bu zəngin qaz-kondensat mənbəyi 25 illiyini qeyd edir



Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının 25 yaşı tamam oldu. Bu, son onilliklərdə kəşf olunmuş ən böyük və perspektivli karbohidrogen yataqlarından biridir. İlkin hesablamalara görə, "Şahdəniz"in təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatı var.

"Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb. Bu, haqlı olaraq həm xalqımız və dövlətimiz, həm layihənin əməliyyatçısı - BP şirkəti, həm də onun "Şahdəniz"dəki tərəfdaşları üçün mühüm hadisə kimi dəyərləndirilir.

*Ardı 6-cı səh.*

# Arpa biçini davam edir

Ölkədə arpa biçini davam edir. Kənd Təsərrüfatı Nazirliyinin son (iyunun 3-nə olan) operativ məlumatına görə, artıq 36148 hektar sahədə biçin başa çatıb. Sahələrdən 102032 ton məhsul yığılıb. Hazırda arpa üzrə orta məhsuldarlıq 28,2 sentner təşkil edir.

Azərbaycanın 35 rayonunda gedən arpa biçini prosesinə 1139 kombayn cəlb olunub. Bunlardan 403 kombayn "Aqroservis" ASC-nin rayon bölmələrində olan kombaynlardır. "Aqroservis" ASC tərəfindən biçin zonasına digər rayonlardan 183 kombayn dislokasiya edilib. Arpa biçinində fiziki və hüquqi şəxslərin mülkiyyətində olan 553 kombayn da iştirak edir. İndiyədək "Aqroservis" ASC-nin kombaynları ilə 21402 hektar, fiziki və hüquqi şəxslərin kombaynları ilə 14746 hektar sahədə biçin aparılıb.

Azərbaycanda taxılın kütləvi biçini iyunun ikinci ongünlüyündə başlayacaq.

# Şəhid jurnalistlərlə vida mərasimi keçirilmişdir






İyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş bir qrup jurnalisti aparan "KamAZ" markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində üç nəfər - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar.

Şəhidlər dünən son mənzilə yola salınıblar.

*Bax: səh. 2*



# Ermənistan terror dövləti olduğunu növbəti dəfə nümayiş etdirdi

İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə uğradılan, işğal etdiyi ərazilərimizdən qovulan Ermənistan bu gün də terror cinayətlərini davam etdirməkdədir. İyunun 4-də xidməti vəzifələrinin icrası ilə əlaqədar Kəlbəcər rayonuna ezam olunmuş media nümayəndələrinin olduğu sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi Ermənistanın terror dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Hadisə nəticəsində 3 nəfər - Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar. Daha 4 nəfərin də yaralandığı bu terror cinayəti Azərbaycan ictimaiyyətində üzüntü və hiddət hissi doğurub.

Ermənistan beynəlxalq hüququn bütün prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas normalarını kobud şəkildə pozaraq vaxtilə işğal etdiyi Azərbaycan ərazilərini minalayıb. İşğalçılar qoşunlarını geri çəkərkən də tərk etdikləri ərazilərə piyada və tank əleyhinə yeni minalar basdırıblar.

Məqsəd isə Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə maneələr yaratmaqdır. Bunun nəticəsidir ki, müharibə bitdikdən sonra da işğaldan azad edilmiş ərazilərimizdə mülki vətəndaşların və hərbçilərin həlak olması, ağır xəsarətlər alması ilə nəticələnən çoxlu sayda mina partlayışı baş verir. Azərbaycanın çağırışlarına, beynəlxalq təşkilatlara müraciətlərinə baxmayaraq terror siyasətindən əl çəkməyən Ermənistan mina xəritələrini verməkdən imtina edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində son hadisə ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimovun və rayon icra hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin Kəlbəcər rayonunda vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olmaları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçıları tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub. Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və Azərbaycana qarşı terror siyasəti həyata keçirməyə davam edir.

*Ardı 3-cü səh.*

# Ermənistan beynəlxalq öhdəliklərini kobud şəkildə pozmaqda davam edir

## *Prezidentin köməkçisi:* “Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər”



“Kəlbəcərdə həlak olan jurnalistlərin topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım ola bilər. Bu, bizim xalqımızın salnaməsidir. Onlar çox gərəkli iş görürdülər, azad olunmuş əraziləri qarış-qarış gəzərək erməni vandallarının törətdikləri dağıntıları, cinayətləri sənədləşdirirdilər”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək həlak olan AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovla vida mərasimində söyləyib.

Şəhid jurnalistlərə Allahdan rəhmət diləyən Hikmət Hacıyev deyib: “Mən Prezident İlham Əliyevin tapşırığına əsasən buradayam. İlk növbədə, cənab Prezidentin, hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın adından mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Həlak olan jurnalistlər xidməti vəzifələrini yerinə yetirərkən mənfur ermənilər tərəfindən qoyulmuş minanın qurbanı olublar. Onların gördüyü işlərin böyük dəyəri var. Onlar bütün kəndlərimizi, şəhərlərimizi addım-addım gəzərək ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi vəhşilikləri sənədləşdirirdilər. Bu iş çox dəyərlidir, bu gün üçün də, yüzilliklər sonra da vacibdir. AZƏRTAC tərəfindən, Azərbaycan Televiziyası tərəfindən ezamiyyəti dəyişdirmək barədə müraciətin olmasına baxmayaraq, onlar geri dönmək istəmirdilər. Bu işi böyük əzmlə, fədakarlıqla, həvəslə yerinə yetirirdilər. Təəssüf ki, mənfur ermənilər tərəfindən xaincəsinə basdırılmış minanın qurbanı oldular. Bu, eyni zamanda, Azərbaycan jurnalistikası və mediası üçün böyük itkidir”.

Prezidentin köməkçisi qeyd edib ki, müharibə dövründə Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan əsgərləri ilə çiyin-çiyinə Azərbaycan jurnalistlərinin, Azərbaycan mediasının da rəşadətinin şahidi olduq. “Onlar ön cəbhədə idilər. Ermənilərin vəhşiliyini əks etdirən foto və videoları bütün dünya ictimaiyyətinə çatdırırdılar. Kəlbəcərdə həlak olan qardaşlarımızın gördüyü iş də bu gərəkli fəaliyyətin tərkib hissəsi idi. Faciə ilə bağlı bütün beynəlxalq təşkilatlara müraciət olunub, bu vəhşilik dünya ictimaiyyəti tərəfindən qınanmalıdır”, - deyə Hikmət Hacıyev vurğulayıb.

## AZƏRTAC-ın şəhid müxbiri Məhərrəm İbrahimov son mənzilə yola salındı







AZƏRTAC-ın ötən gün Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək şəhid olan müxbiri Məhərrəm İbrahimov iyunun 5-də son mənzilə yola salınıb.

Vida mərasimində iştirak edən Prezidentin köməkçisi Hikmət Hacıyev şəhidin ailə üzvlərinə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın başsağlığını çatdırıb.

Şəhid jurnalist Müşfiqabad qəsəbəsindəki qəbiristanlıqda valideynlərinin məzarlarının yanında dəfn olunub.

Dəfn mərasimində AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, şəhidin ailə üzvləri və yaxınları, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə müxbir Məhərrəm İbrahimovun nümunəvi xidməti fəaliyyətindən, vətənpərvərliyindən və işində daim yüksək peşəkarlıq nümayiş etdirməsindən danışılıb. Sonra şəhid jurnalistin ruhuna dualar oxunub, məzarı üzərinə gül dəstələri və əklillər qoyulub.

Qeyd edək ki, iyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş bir qrup jurnalisti aparan “KamAZ” markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində üç nəfər - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar.

## Şəhid məmurla vida mərasimi keçirildi

Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətində media nümayəndələri ilə birgə minaya düşərək həlak olan Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini 1983-cü il təvəllüdlü Arif Ağalar oğlu Əliyevlə vida mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, vida mərasimi Göygöl rayonunun Xasabağ kəndində keçirilib. Şəhidin ailə üzvlərinin, yaxınlarının, rəsmi şəxslərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimdən sonra onun cənazəsi Göygöl rayonundakı Şəhidlər xiyabanında dəfn olunub.

Qeyd edək ki, jurnalistlərdən ibarət çəkiliş qrupunu aparan nəqliyyat vasitəsi dünən səhər saatlarında Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşüb. Partlayış nəticəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov, habelə Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, 4 nəfər isə yaralanıb.

## *Hikmət HACIYEV:* “Ermənistan məqsədyönlü şəkildə Azərbaycanın mülki insanlarını hədəf alan siyasət yeridir”



“Kəlbəcərdə mina partlayışı faktı bir daha onu göstərir ki, Ermənistan məqsədyönlü şəkildə Azərbaycanın mülki insanlarını hədəf alan siyasət yeridir”.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək həlak olan AzTV-nin operatoru Sirac Abışovla vida zamanı jurnalistlərə açıqlamasında deyib.

Hikmət Hacıyev bildirib ki, beynəlxalq səviyyədə qəbul olunmuş sənədlərdə jurnalistlərin hərbi əməliyyatlar zamanı fəaliyyəti mülki insanlara bərabər tutula biləcək haldır: “Yəni jurnalistin qətlə yetirilməsi və yaxud da bilərəkdən öldürülməsi, onun mina qurbanı olması mülki insanlara qarşı həyata keçirilmiş cinayətlər səviyyəsində ehtiva olunan cinayət əməlidir. Bu cinayətin məsuliyyətini Ermənistan bilavasitə daşıyır”.

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, mina xəritələri ilə bağlı məsələ beynəlxalq tərəfdaşlar qarşısında qaldırılıb: “Bütün beynəlxalq təşkilatlar çərçivəsində məsələ qaldırılır ki, Ermənistan mina xəritələrini təhvil verməlidir. Bu, eyni zamanda, Ermənistanın özünün məsuliyyəti və öhdəliyidir. Biz burada sivil qaydalardan və sivil dünyadan tamamilə kənar olan, barbar siyasət yürüdən, mülki insanları hədəf alan və məqsədyönlü şəkildə mülki insanların öldürülməsi siyasəti yürüdən bir dövlətdən danışırıq. Biz onların digər barbar əməllərini də görmüşük. Amma bunun müqabilində xəritələr təqdim olunana qədər Prezidentin tapşırığı əsasında Azərbaycan Respublikasının aidiyyəti strukturları tərəfindən intensiv şəkildə işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi əməliyyatı aparılır. Bura piyada əleyhinə, tank əleyhinə minalar və digər ciddi təhlükə yaradan partlamamış mərmilər, silah və sursatlar daxildir. Ermənistanın mina fəaliyyətinə qısaca baxdıqda görərik ki, bu minalar hər hansı hərbi zərurət olmayan məntəqələrdə basdırılıb. Deməli, burada da məqsəd mülki insanları öldürmək olub. Mülki şəxslər, yaxud tikinti işləri aparan insanlar təsadüfi şəkildə bu minaların qurbanı olurlar. Təmas xətti boyunca minaların düzülməsi tutaq ki, hərbi zərurət tələb edə bilər, amma Sirac qardaşımızın, Məhərrəm qardaşımızın həlak olduğu yerə baxsaq görərik ki, hadisə kəndin girəcəyindəki yolda baş verib. Bura hər hansı təmas xəttindən və təmas məntəqəsindən tamamilə kənardır. Deməli, məqsəd yalnız mülki insanları öldürməkdir”.

Hikmət Hacıyev diqqətə çatdırıb ki, Azərbaycan Respublikası tərəfindən minalarla bağlı artıq dövlət ittihamı səviyyəsində Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında məsələ qaldırılıb.

## AzTV-nin şəhid operatoru Sumqayıtda dəfn olundu







Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək həlak olan AzTV-nin operatoru Sirac Abışov iyunun 5-də Sumqayıtdakı Şəhidlər xiyabanında torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, vida mərasimində Prezidentin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, “Azərbaycan Televiziya və Radio Verilişləri” (AzTV) Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Milli Məclisin deputatları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Prezidentin köməkçisi Hikmət Hacıyev şəhidin ailə üzvlərinə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın başsağlığını çatdırıb.

Sirac Sumqayıt şəhərinin ən müqəddəs yerində - Şəhidlər xiyabanında dəfn olunub. Şəhidin ruhuna dualar oxunub, məzarı üzərinə gül dəstələri və əklillər qoyulub.

Qeyd edək ki, Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisindəki yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi iyunun 4-də səhər saatlarında tank əleyhinə minaya düşüb. Partlayış nəticəsində çəkiliş qrupunun iki üzvü - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının (AzTV) operatoru Sirac Abışov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyev həlak olub, 4 nəfər isə yaralanıb.

## *Fransalı senator:* “Ermənilər minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycana verməlidirlər”

Fransa senatoru Natali Qule özünün “Twitter” səhifəsində Kəlbəcər rayonunda mina partlaması nəticəsində həlak olmuş azərbaycanlı jurnalistlərlə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımında fransalı senator ötən həftə Bakıda və Ağdamda olduğunu bildirib. Qeyd edib ki, o, minalanmış əraziləri öz gözləri ilə görüb. “Minalanmış ərazilərin çox geniş sahəni əhatə etdiyni bilirəm. Burada Cənubi Koreya ilə Şimali Koreya arasındakı demilitarizasiya zonasındakından daha çox mina basdırılıb”, - deyə paylaşımda bildirilib.

Kəlbəcərdə mina partlayışı nəticəsində həyatını itirmiş 2 jurnalistin - Sirac Abışovun və Məhərrəm İbrahimovun ailələrinə dərin hüznlə başsağlığı verən Natali Qule yazıb: “Ermənilər minalanmış ərazilərin xəritələrini dərhal Azərbaycana verməlidirlər. Beynəlxalq birlik və xüsusilə Fransa Ermənistanın xeyrinə apardıqları siyasəti dayandırmalıdır. Beynəlxalq birlik ərazilərin minalardan təmizlənməsində Azərbaycana yardım etməli, ədalətli və balanslaşdırılmış yanaşma ilə sülh prosesinə dəstək verməlidir. Avropalı həmkarlarımı seçkilər xatirinə erməni lobbisini dəstəkləmək əvəzinə, Azərbaycana səfər etməyə çağırıram”.

## *Gürcü politoloq:* “Azərbaycanlı jurnalistlərin azad edilmiş ərazilərdə mina partlaması nəticəsində həlak olması terror aktı kimi qiymətləndirilməlidir”

“Azərbaycanlı jurnalistlərin erməni işğalından azad olunmuş Kəlbəcər rayonu ərazisində mina partlaması nəticəsində həlak olmaları terror aktı kimi qiymətləndirilməlidir”. Bunu AZƏRTAC-a açıqlamasında Gürcüstanın ART-Qalleri televiziya şirkətinin rəhbəri, politoloq Tengiz Txilava söyləyib.

Politoloq deyib: “Hərbi əməliyyatlar zamanı ərazilərin minalanmasını müəyyən qədər başa düşmək olar. Amma müharibənin başa çatmasından 7 ay keçməsindən və sülh yarandıqdan sonra da minalanmış ərazilərin xəritəsini qarşı tərəfə təqdim etməmək düşünülmüş bir cinayətdir. Bu, birmənalı şəkildə qatı terror hərəkətidir”.

Onun sözlərinə görə, Ermənistandan bundan başqa nəsə gözləmək də əbəsdir. Çünki terrorçu hansısa terror aktını törədərkən qarşısına məqsəd qoyur. “Burada bir məqsəd var. Ermənilər minalanmış ərazilərin xəritələrini Azərbaycana təqdim etməməklə, sadəcə olaraq, qalibdən qələbənin heyfini çıxmaq istəyirlər”, - deyə Txilava vurğulayıb.

## *Adil ƏLİYEV:* “Minalanmış sahələrin xəritəsinin verilməməsi Ermənistanın növbəti müharibə cinayətidir”

İyunun 5-də Milli Məclis sədrinin müavini Adil Əliyev Vətən müharibəsinin iştirakçısı, habelə müharibədə iştirak edən həkim, arxa cəbhədə fəallıq göstərmiş jurnalistlər və gənclər ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Adil Əliyev şanlı tariximizin ən böyük hadisələrindən biri olan Vətən müharibəsindən söhbət açaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etdiyini, bununla da ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, insanların uzun müddət həsrət qaldıqları dədə-baba torpaqlarına qovuşduğunu bildirib. Vurğulayıb ki, istər döyüş meydanında, istərsə də danışıqlar masasında qazanılmış uğurlar düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi.

Milli Məclis sədrinin müavini diqqətə çatdırıb ki, Ermənistanın müharibədəki ağır məğlubiyyətini həzm edə, müharibədən sonrakı dövrdə ölkədə baş verən xaosu tənzimləyə bilməməsi onun dövlət olaraq tənəzzülünün əsasını təşkil edir.

Adil Əliyev eyni zamanda iyunun 4-də Kəlbəcər rayonunda baş verən, peşə vəzifələrini icra edərkən 2-si media nümayəndəsi olmaqla 3 nəfərin minaya düşərək həlak olmasını Ermənistanın törətdiyi növbəti müharibə cinayəti olduğunu bildirib. Habelə görüşdə iştirak edən media nümayəndələrinə Ermənistanın törətdiyi müharibə cinayətlərinin işıqlandırılmasını davam etdirmələrini tövsiyə edib. Deyib ki, dövlət başçısının Ermənistanın beynəlxalq hüququn tələblərini pozduğunu, minalanmış ərazilərin xəritəsinin verilməsindən imtina etdiyini dəfələrlə beynəlxalq ictimaiyyətə çatdırsa da, bugünədək Ermənistanın bu təcavüzkar siyasətinin qarşısı alınmayıb.

“Beynəlxalq təşkilatların münaqişə ilə bağlı 30 il səssiz qalmasından sonra ölkəmiz öz suveren hüquqlarını bərpa etdi, bununla da dövlətimizin qüdrətini dünyaya bir daha göstərdi. İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi, “Xarıbülbül” musiqi festivalının keçirilməsi ölkəmizin hərbi sahə ilə yanaşı, iqtisadi və digər sahələrdəki qüdrətini də dünyaya bir daha göstərir” - deyən Milli Məclis sədrinin müavini Vətən müharibəsindən sonra da şəhid və qazi ailələrinin dövlət tərəfindən qayğı ilə əhatə olunduğunu, onların problemlərinin həlli məqsədilə dövlət başçısının sərəncamına əsasən “YAŞAT” Fondunun yaradıldığını, fond tərəfindən bu sahədə genişmiqyaslı işlər aparıldığı, eyni zamanda, hər bir azərbaycanlının bu işdə daha fəal iştirakının arzuedilən olduğunu diqqətə çatdırıb.

Görüş iştirakçıları səmimi qəbula görə təşəkkürlərini bildiriblər. Vətən müharibəsi iştirakçıları, habelə arxa cəbhədə fəallıq göstərənlər tarixi Zəfərdə kiçik də olsa xidmətlərinin olmasından qürur duyduqlarını bildirib, müharibədən sonra da həkimlərimiz tərəfindən qazi və şəhid ailələrinin müalicəsi və müayinəsinin aparılmasının xalqımızın böyüklüyünün təcəssümü olduğunu qeyd ediblər. Habelə media nümayəndələri ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasının, Ermənistanın müharibə cinayətlərinin geniş işıqlandırılmasının prioritet istiqamət olaraq qalacağını bildirib.

Sonda görüş iştirakçılarına Vətən müharibəsində və arxa cəbhədə göstərdikləri xidmətlərə görə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

## *“The USA Tribune” qəzeti:* “İki azərbaycanlı jurnalist minaya düşərək həlak olub”

Amerikada çıxan “The USA Tribune” qəzetində “İki azərbaycanlı jurnalist minaya düşərək həlak olub” sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalə iyunun 4-də Azərbaycanın Kəlbəcər rayonunda baş vermiş faciəvi hadisəyə həsr olunub.

Materialda qeyd edilir ki, Azərbaycanın Kəlbəcər rayonunun Susuzluq kəndi yaxınlığında tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan Dövlət Televiziyasının operatoru Sirac Əliyev, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov (Əlioğlu) və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının nümayəndəsinin müavini Arif Əliyev həlak olub.

Faciə yerli vaxtla səhər saat 11:00 radələrində baş verib. Dörd nəfər müxtəlif dərəcəli xəsarətlər alaraq xəstəxanaya yerləşdirilib.

Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi mina partlayışı nəticəsində KİV işçilərinin həlak olması barədə birgə bəyanatla çıxış ediblər. Bəyanatda deyilir ki, erməni silahlı qüvvələri Azərbaycan ərazilərini minalamaqla Azərbaycan vətəndaşlarına qarşı cinayətkar əməllərini davam etdirirlər. Bu, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərinin, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının tələblərinin kobud şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması, törədilməsi və ya aparılması), 116.0.6 (silahlı münaqişə dövründə beynəlxalq humanitar hüququn pozulması) və başqa maddələri üzrə cinayət işi qaldırıb.

Məqalədə qeyd edilir ki, Fransanın Azərbaycandakı səfiri Zakari Qross öz “Twitter” səhifəsində azərbaycanlı jurnalistlərin həlak olması ilə əlaqədar başsağlığı verib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın üç dinc sakininin həlak olması ilə əlaqədar başsağlığı verib. Xarici siyasət idarəsi rəhbərinin bəyanatında qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin bir qrup hərbi qulluqçusu Kəlbəcər istiqamətində Azərbaycanın dövlət sərhədini pozmağa və bu rayonun yollarında yerüstü minalar quraşdırılmasına yönəlmiş provokasiya törətməyə cəhd edərkən saxlanılıb. Bu fakt bir daha təsdiq edir ki, Ermənistan həm hərbçilərin, həm də mülki əhalinin həyatına və təhlükəsizliyinə ciddi təhdid mənbəyidir və bununla regionda vəziyyətin kəskinləşməsinə şərait yaradır. C.Bayramov bəyan edib ki, Ermənistanın bu cür davranışı regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa nail olmaq yolunda ciddi maneə kimi qalmaqda davam edir.

## İordaniya agentliyi AZƏRTAC-ın beynəlxalq və regional media təşkilatlarına müraciətini yayıb

İordaniyanın “Nayrouz” informasiya agentliyi “AZƏRTAC beynəlxalq və regional media təşkilatlarına müraciət ünvanlayıb” sərlövhəli xəbər yayıb. Xəbərdə iyunun 4-də Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olması və yaralanması ilə əlaqədar AZƏRTAC-ın üzvü olduğu beynəlxalq media təşkilatlarına - Dünya Xəbər Agentlikləri Konqresinin (NAWC), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA), İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA), Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Ərəb Ölkələri Xəbər Agentlikləri Təşkilatının (FANİA), bu təşkilatlara üzv olan agentliklərin və digər beynəlxalq media qurumlarının rəhbərlərinə müraciətinin mətni də yer alıb.

Azərbaycanlı jurnalistlərin erməni diversantları tərəfindən basdırılan minaya düşərək şəhid olması barədə xəbərlər, həmçinin İƏT Milli Xəbər Agentlikləri Birliyinin (UNA) saytında, İordaniyanın “Nabdapp”, Əlcəzairin “Əl Hərir” informasiya portallarında, Misirin nüfuzlu “Əl Əhram” qəzetində də yayımlanıb.

# Xarici işlər naziri rotasiya qaydasında xarici ezamiyyətə gedən diplomatlarla görüşüb

İyunun 5-də xarici işlər naziri Ceyhun Bayramov rotasiya qaydasında xarici ezamiyyətə gedən diplomatlarla görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlik və konsulluqlarında fəaliyyət göstərəcək diplomatları təyinatları münasibətilə təbrik edib.






Nazir ölkəmiz üçün tarixi bir dönəmdə həyata keçən bu təyinatın, ölkəmizin beynəlxalq müstəvidə layiqli şəkildə təmsilçiliyi baxımından hər bir diplomatın üzərinə böyük məsuliyyət qoyduğunu qeyd edib və bu xüsusda diplomatlarımızın hərtərəfli hazırlığının vacib olduğunu vurğulayıb.

C.Bayramov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı Qələbədən sonra bölgədə yaranmış yeni reallıqlar, ölkəmizin xarici siyasətinin bu reallıqlara uyğun olaraq həyata keçirilməsi, Azərbaycanın maraqlarının beynəlxalq müstəvidə təmin edilməsi, diplomatların təmsilçiliyin vəzifələri və digər mövzular barədə diplomatlara ətraflı məlumat verib.

Diplomatlarla geniş fikir mübadiləsi aparan nazir onların suallarını cavablandırıb.

# Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələri genişlənir

İyunun 7-də Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılığı ilə işçi qrupunun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyev Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun dəvəti ilə Ankaraya səfərə yola düşəcəklər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Azərbaycan parlamentinin nümayəndələri TBMM-də fəaliyyət göstərən bir sıra komitələrdə deputat həmkarları ilə görüşəcək, fikir və təcrübə mübadiləsi aparacaqlar.

Milli Məclis üzvlərinin Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntop, Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu, təhsil naziri Ziya Selçuk, səhiyyə naziri Fahrettin Koca ilə də görüşləri nəzərdə tutulub. Görüşlərdə qarşılıqlı səfərlərin intensivləşdirilməsi, beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın davam və inkişaf etdirilməsi və digər məsələlər müzakirə olunacaq.

Səfər iyunun 11-də başa çatacaq.

# Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn prokurorluğun sabiq əməkdaşının xatirəsi yad olunub

İyunun 5-i İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksələn Gəncə Şəhər Prokurorluğunun sabiq əməkdaşı Yüksəl Əlizadənin doğum günüdür.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq əməkdaşları şəhidin məzarı önünə gələrək əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər gül dəstələri düzüblər.

Mərasim iştirakçıları 25 yaşı tamam olan Yüksəl Əlizadənin keçdiyi qısa və mənalı həyat yolundan söz açıb, tarix yazan qəhrəman şəhidlərin and yerimizə, ziyarət məkanımıza çevriləcəklərini bildirib.

Qeyd edək ki, Yüksəl Əlizadə 1996-cı il iyunun 5-də sabiq prokurorluq əməkdaşı, mərhum İlqar Əliyevin ailəsində dünyaya göz açıb.

O, 2017-ci ildən Gəncə Şəhər Prokurorluğunda böyük mütəxəssis vəzifəsində işləyib.

Ötən ilin iyulunda Tovuz döyüşləri zamanı könüllü şəkildə Səfərbərlik Xidmətinə müraciət edərək orduya yazılan Yüksəl Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

# Ermənistan terror dövləti olduğunu növbəti dəfə nümayiş etdirdi

***Əvvəli 1-ci səh.***

Təəssüf ki, Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupu ölkələrinə, həmçinin müxtəlif beynəlxalq təşkilatlara mina xəritələrinin verilməsi məsələsində Ermənistana təzyiq göstərməsi ilə bağlı çağırışları heç bir nəticə vermədi. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir! Azərbaycan xalqı müzəffər xalqdır! Onun iradəsini sındırmaq və onu qorxutmaq qeyri-mümkündür! Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin! Məkanları cənnət olsun!"

Xatırladaq ki, bir müddət əvvəl Ermənistanın bir qrup hərbçisi Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq yolların minalanmasına yönəlmiş təxribat törədərkən hərbçilərimiz tərəfindən saxlanılıblar. Bu bir daha göstərdi ki, Ermənistan tərəfi həm hərbi, həm də mülki şəxslərin həyatına və təhlükəsizliyinə ciddi təhdid yaratmaqda davam edir, beləliklə, bölgədə vəziyyəti gərginləşdirir.

Ermənistanın 10 noyabr bəyannaməsindən indiyə kimi minalanmış xəritələri özündə saxlaması və işğaldan azad olunmuş ərazilərimizdə törətmək istədiyi təxribatlar bir daha bu ölkənin məkrli siyasətindən və çirkin niyyətindən xəbər verir. İndiyə qədər bəzi təşkilatlar hərbçilərimiz tərəfindən ələ keçirilən erməni təxribatçılarının Ermənistana qaytarılması ilə bağlı bəyanatlar səsləndirib. Amma təəssüf ki, həmin təşkilatlar Ermənistanı minalanmış ərazilərin xəritəsini verməyə çağırmırlar. Mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana hər hansı bir təzyiqin göstərilməməsi, ayrı-ayrı təşkilatların bu ölkənin beynəlxalq öhdəlikləri kobud şəkildə pozmasına, o cümlədən minaların qəsdən basdırılması siyasətinə göz yumması günahsız insanların həyatını itirməsinə səbəb olur.

Bütövlükdə mülki insanların həlak olması ilə nəticələnən bu kimi hadisələr Ermənistanın faşizm ideologiyasına büründüyünü, terroru dövlət siyasəti səviyyəsinə yüksəltdiyini bütün qabarıqlığı ilə təsdiq edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Özbəkistanlı jurnalistlər Gəncədə şahidi olduqları erməni vandalizmi barədə yerli oxucuları məlumatlandırıblar

Özbəkistanın "qalampir.uz" portalının əməkdaşları Feruza Najmiddinova və Kamoliddin Zaidov Azərbaycana səfərləri çərçivəsində Gəncəyə gedərək orada erməni vandalizminin şahidi olublar. AZƏRTAC xəbər verir ki, jurnalistlər Özbəkistana qayıtdıqdan sonra dərc etdirdikləri məqalədə özbək oxucuları ermənilərin mülki şəxslərə qarşı törətdikləri vəhşiliklər barədə məlumatlandırıblar.

Bildirilib ki, Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri Gəncəyə qadağan olunmuş ballistik raketlərlə dəfələrlə hücum edib, bu hücumların ikisi daha ağır fəsadlar törədib. Jurnalistlər qeyd ediblər ki, onlar səfər çərçivəsində ötən il oktyabrın 11-də və 17-də Gəncə şəhərinə atılan raketlər nəticəsində dağılmış yerlərdə olublar.

Materialda bildirilir ki, oktyabrın 11-də şəhərə gecə yarısı raket hücumu nəticəsində 12 nəfər ölüb, 40 nəfərdən çox sakin yaralanıb. Növbəti raket hücumu zamanı isə 16 mülki şəxs həlak olub, 55 nəfər yaralanıb. Onların arasında uşaqlar da var. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış evlərinə, inzibati binalara, avtomobillərə ciddi ziyan dəyib.

Məqalədə Qarabağın tarixi, Ermənistanın Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxlaması, zəbt olunan şəhər və kəndlərin yerlə yeksan edilməsi, məscidlərin, milli mədəni irsin dağıdılması haqqında özbək oxucularına ətraflı məlumat verilir.

Yazıda həmçinin 44 gün davam edən Vətən müharibəsi, Azərbaycan əsgərinin şücaəti, işğal altındakı torpaqların geri qaytarılması haqqında da zəngin məlumat var.

# Azərbaycan ictimaiyyəti Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciət ünvanlayıb

Azərbaycan ictimaiyyəti Rusiyada 19 yaşlı azərbaycanlı Vəkil Abdullayevi qətlə yetirən yol polisi müfəttişi Aleksandr Qusevin azadlığa buraxılması ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

## Azərbaycan ictimaiyyətinin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciəti

Möhtərəm Vladimir Vladimiroviç!

Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin tapşırığına əsasən Novosibirsk vilayəti Yol Hərəkəti Təhlükəsizliyi Baş Müfəttişliyinin böyük müfəttişi, 19 yaşlı azərbaycanlı Vəkil Abdullayevi ölümcül yaralamış Aleksandr Qusevin həbsdən azad edilməsi faktı Azərbaycan ictimaiyyətini dərindən hiddətləndirib.

Məlum olduğu kimi, bu hadisə mayın 28-də Moşkovo qəsəbəsi rayonunda baş verib. RF DİN-in versiyasına görə, yol patrul xidməti əməkdaşları içərisində zərərçəkmişin olduğu avtomobili süräti aşdığına görə təqib edəndən sonra dayandırıblar. Asayiş keşikçiləri hüquq pozanları qovub çatanda həmin maşındakı gənclər çıxıb qaçmağa başlayıblar. Lakin asayiş keşikçiləri qaçanlardan birini tuta biliblər, bundan sonra əlbəyaxa döyüş başlanıb. Vəkil Abdullayev həmin gənclərin köməyinə gələndə polis işçisi Aleksandr Qusev onun başına atəş açıb.

Biz səlahiyyət həddini aşmış polis işçisinin həbsdən azad olunmasını təkcə cinayətin ört-basdır edilməsi və bəyənilməsi kimi deyil, həm də ksenofobiyadan əziyyət çəkənlərin təşviq edilməsi kimi qiymətləndiririk.

Biz Rusiya Federasiyasının ictimai palatasının üzvü, "Yedinaya Rossiya" partiyasından Dövlət Dumasına deputatlığa namizəd Mariya Butinanı da həmin insanlar kateqoriyasına aid edirik. M.Butina nəinki polisin hərəkətlərini bəyənib, hətta onun "xidmətə görə təltif olunmasını" təklif edib. Biz M.Butinanın söylədiklərini özümüzə dost hesab etdiyimiz, ənənələrinə, dilinə və mədəniyyətinə, beynəlmiləlçilik, tolerantlıq ruhuna və Rusiyanı həmişə məşhurlaşdıran mənəvi dəyərlərə hörmət və ehtiram bəslədiyimiz ölkədə ksenofobiyanın və dözümsüzlüyün təbliği kimi qiymətləndiririk. Azərbaycan ictimaiyyəti Mariya Butinanın Amerika həbsxanasında aldığı psixi zədələri əsas götürərək onun başqa millətlərdən olan insanlarla psixoloji uyuşmazlığının bu şəkildə təzahür etməsinə anlaşıqla yanaşmağa hazır olardıq, yalnız bu şərtlə ki, o, həm güllələnmiş gəncin ailəsindən, həm də bütün Azərbaycan xalqından üzr istəsin.

Polisin hərəkətlərinə gəldikdə isə Azərbaycan ictimaiyyəti hüquq mühafizə orqanlarının Aleksandr Qusevin "qərəzli olmayan hərəkəti" kimi təqdim etməyə çalışdıqları atəş açılması üçün heç bir səbəb görmür. Əlində silah tutmuş insanlardan kim inana bilər ki, həmin silah guya polisin "həyatına təhdid yaradan" "qanun pozucusuna" özü belə reaksiya verib? Bu hökmün sübutsuz olmasının səbəbləri çoxdur. Məgər Vəkil Abdullayevin əlində tapança olubmu? Qusev tərəfindən güllələnmiş gənc məhz nə ilə təhdid edirmiş? Heç nə ilə!

Sual olunur: bu cür itaətsizlik silahdan istifadə etməyə nə dərəcədə əsas verir? Tapançanın lüləsi tamamilə müdafiəsiz olan gəncə qarşı yönəldilib. Şübhəsiz, bu hərəkətlər hüquqazidd olub.

Hörmətli Vladimir Vladimiroviç, biz hətta təsəvvür edə bilərik ki, buna oxşar bir hadisə bizdə, Azərbaycanda baş vermiş olsun. Amma kim bilir, əgər Qusevə və Butinaya oxşar insanlar sabah nahaq yerə günahsız insanların qanını tökməməyə çağıran əcdadlarımızın mənəvi qanununu unudaraq dözümsüzlük və ksenofobiya ideologiyasını təbliğ edən insanların sıralarını genişləndirməyə başlasalar, onda nə olacaq? Dünya onsuz da uçurum həddindədir, uçuruma yuvarlanmaq riski altındadır. Elə isə "qusevlərin", "butinaların" və "bastrıkinlərin" əməllərini diqqətsiz qoymağa dəyərmi?

Bizim ölkəmizdə on milyondan çox insan yaşayır. Bu insanlar müxtəlif etnik, dil qruplarına və müxtəlif millətlərə mənsubdurlar. Onlar hamısı bu gün gərginlik içində diqqətlə Sizdən ədalətli qərar gözləyir. Hesab edirik ki, Abdullayevin qətli ilə bağlı bu çirkin əhvalatda əli olan insanlar ədalətli cəzalarını almalıdırlar.

1. Mixail Zabelin - Milli Məclisin deputatı, Azərbaycan Rus İcmasının sədri
2. Anastasiya Lavrina - Azərbaycan Rus İcmasının sədrinin müavini
3. Tural Gəncəliyev - Milli Məclisin deputatı
4. Sevil Mikayılova - Milli Məclisin deputatı
5. Arzu Nağıyev - Milli Məclisin deputatı
6. Hikmət Məmmədov - Milli Məclisin deputatı
7. Aydın Mirzəzadə - Milli Məclisin deputatı
8. Cavid Osmanov - Milli Məclisin deputatı
9. Bəxtiyar Sadıqov - Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru
10. Mirşahin Ağayev - "REAL TV"nin rəhbəri
11. Əflatun Amaşov - Mətbuat Şurasının sədri
12. Elçin Şıxlı - Jurnalistlər Birliyinin sədri, "Ayna-Zerkalo" qəzetinin baş redaktoru
13. Rəşad Məcid - "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin katibi
14. Eynulla Fətullayev - "Haqqin.az" saytının baş redaktoru
15. Orxan Fikrətoğlu - müstəqil jurnalist
16. Murad Hüseynov - İTV-nin baş direktorunun müavini
17. Şakir Eminbəyli - "Rossiya-24" telekanalının Azərbaycandakı nümayəndəsi
18. Vüsalə Abışova - "Azəri-Press" informasiya agentliyinin rəhbəri
19. Murad Əliyev - "Report" informasiya agentliyinin rəhbəri
20. Səadət Məmmədova - ATV rəhbərinin müşaviri
21. Emin Musəvi - "ASAN radio"nun rəhbəri
22. Rauf Arifoğlu - "Yeni Müsavat" qəzetinin baş redaktoru
23. Kəmalə Məmmədova - "1news.az" saytının baş redaktorunun müavini
24. Tofiq Abbasov - AzTV-nin siyasi icmalçısı
25. Vyaçeslav Sapunov - bloger
26. Aynur Quliyeva - "Gündəlik Teleqraf" MMC-nin rəhbəri
27. Həmid Həmidov - "Global Media Group"un media direktoru
28. Ədalət Verdiyev - hərbi şərhçi, bloger
29. Emil Mustafayev - "Minval.az" saytının baş redaktoru
30. Elçin Alıoğlu - "Milli.az" saytının baş redaktoru
31. Vüsal Məmmədov - "Azvision.az" saytının baş redaktoru
32. Şakir Ağayev - "Novoye vremya" qəzetinin baş redaktoru
33. Araz Zeynalov - "Vesti.az" saytının rəhbəri
34. Yunis Orucov - AzTV-nin informasiya proqramları studiyasının direktor müavini
35. Namiq Mailov - "Region+" jurnalının baş redaktoru
36. Yeganə Hacıyeva - bloger
37. Rauf Zeyni - Milli QHT-lər Forumunun prezidenti
38. Fatma Səttarova - Müharibə və Əmək Veteranı, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri
39. Azər Allahverənov - "Avrasiya miqrasiya təşəbbüsləri platforması" İctimai Birliyinin sədri
40. Şəmistan Əlizamanlı - "Vətənpərvərlik təbliğinə dəstək" İctimai Birliyinin sədri
41. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri
42. Novella Cəfəroğlu - hüquq müdafiəçisi, Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri
43. Səadət Bənənyarlı - hüquq müdafiəçisi, "Beynəlxalq İnsan Haqları Cəmiyyətinin Azərbaycan Milli Bürosu" İctimai Birliyinin rəhbəri
44. Səltənət Qocamanlı - hüquq müdafiəçisi, "İnsan Haqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin rəhbəri
45. Əliməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri
46. Rufiz Qonaqov - "Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi" İctimai Birliyinin rəhbəri
47. Fəxrəddin Həsənzadə - Gənclər üçün Təhsil Mərkəzinin direktoru
48. Zaur Məmmədov - Bakı Politoloqlar Klubunun rəhbəri
49. Ramil İsgəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin rəhbəri
50. Şəlalə Həsənova - "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin rəhbəri
51. Məhərrəm Zülfüqarlı - "İctimai Problemlərin Tədqiqi Assosiasiyası" İctimai Birliyinin rəhbəri
52. Nüşabə Məmmədova - "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin rəhbəri.

# Azərbaycandan olan Böyük Vətən müharibəsi veteranları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciət göndərib

Azərbaycandan olan Böyük Vətən müharibəsi veteranları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciət ünvanlayıblar. AZƏRTAC müraciəti təqdim edir.

## Azərbaycandan olan Böyük Vətən müharibəsi veteranlarının Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə müraciəti

Möhtərəm Vladimir Vladimiroviç!

Biz Böyük Vətən müharibəsi veteranları sovet ölkəsinin müstəqilliyi uğrunda çiyin-çiyinə vuruşmuşuq. Bu gün biz bütün çoxmillətli Rusiyanın veteranları ilə parçalanmağa deyil, birləşməyə yönəlmiş beynəlmiləl dəyərləri çiyin-çiyinə qorumağa hazırıq.

Hörmətli Vladimir Vladimiroviç, Azərbaycan Prezidenti İlham Əliyev və Siz öz xalqlarınıza müraciət edərkən tez-tez deyirsiniz ki, biz birlikdə güclüyük. İndi biz "ayrı-ayrı mənzillərdə" yaşasaq da, qardaşlaşdığımız təkcə cəbhə yoldaşlarına münasibətdə deyil, bütün xoşməramlı insanlara - xeyirxahlıq və sülh, multikulturalizm, tolerantlıq, mənəvi və millətlərarası birlik ideallarını qorumağa həmişə hazır olanlara qardaşcasına münasibətimizi hələ də qoruyub saxlayırıq. Biz yalnız bu halda qüvvə ola və hazırda ən müxtəlif çalarlı liberallar tərəfindən "yenidən baxılmağa" məruz qalan ümumi dəyərlərimizin dağıdılmasına müqavimət göstərə bilərik.

Biz Sizə ümumi və etibarlı gələcək naminə, birlikdə qazandığımız və öz nəvə-nəticələrimiz üçün qoruyub saxlamağa borclu olduğumuz sülh üçün əldə etdiklərimizin itirilməsinə yol verə bilməyəcək müdrik siyasi xadim kimi müraciət edirik. İnanırıq ki, Rusiyada doğulmuş etnik azərbaycanlının - 19 yaşlı Vəkil Abdullayevin qətl hadisəsinin bütün iştirakçıları ali ədalət naminə qanunun tam ciddiliyi üzrə cəzalandırılacaqlar. Eynilə qanunlara, ədalət anlayışına etinasızlıq göstərən Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin etdiyi kimi cəzasızlığa şərait yaradanlar da. Yol Hərəkətinin Təhlükəsizliyi Baş Müfəttişliyinin əməkdaşı, həmin gəncin gicgahına atəş açmış Aleksandr Qusev Bastrıkinin göstərişi ilə azadlığa buraxılıb. Biz müharibədə olmuşuq və döyüşdə dostlarımızı itirmişik. Lakin biz orada, müharibədə kimin özümüzünkü, kimin yad olduğunu bilirdik. Biz öz cəbhə dostlarımızı heç vaxt milli mənsubiyyətə görə özümüzünkülərə və yadlara bölməmişik. Ona görə ki, biz hamımız birlikdə güc idik.

Bu gün "Yedinaya Rossiya" partiyasının nümayəndəsi, üstəlik, RF İctimai Palatasının üzvü və yuxarıda adı çəkilən partiyadan Dövlət Dumasına deputatlığa namizəd olan Mariya Butina kimilər, görünür, yalnız milli mənsubiyyətə görə "özününküləri" dəqiq müəyyən edirlər. Bizim belə düşünməyimizə əsas verən onun bu sözləridir ki, A.Qusevi belə hərəkətlərinə görə nəinki həbs etmək olmaz, hətta onu təltif etmək lazımdır. Belə çıxır ki, 19 yaşlı gəncin qətlə yetirilməsinə görə kimisə təltif etmək lazımdır? Məgər o, tanka minib şəhərə daxil olub və ağına-bozuna baxmadan hamıya atəş açıb? Yox. Onu, silahsız gənci avtomobilin üstünə sıxıb və guya təsadüfən tabel silahının tətiyini basıblar! Bu, nə deməkdir? Butina insanlar arasında ayrı-seçkiliyə, onları milli mənsubiyyətinə görə cəzalandırmağa çağırır? Rusiyada gəlmələrə divan tutmağa çağırır? Məgər onun belə bəyanatlar etməyə haqqı var? Biz belə fərz edə bilərik ki, Butina gəncdir, nəticə çıxarmağa tələsib. Amma hər halda, bu sözlər deyilib! Özü də necə deyilib?!! Arxasında qüvvə dayanan insana xas olan sərt əminliklə. Bu, hansı qüvvədir?

Hörmətli Vladimir Vladimiroviç!

Biz müharibədə olmuşuq, hər gün ölümün gözünün içinə baxmışıq. Biz mürəkkəb həyat sürmüşük və bu həyat belə deməyə haqq verir ki, həmin insidentə görə narahat olaq... Biz bu həyatda çox şeylər görmüş ahıl insanlarıq. Biz bu dünyadan belə bir fikirlə getmək istəmirik ki, qazandıqlarımız heç olub. Lakin nə qədər ki, biz sağıq, dünyamızı qoruyub saxlamaq üçün əlimizdən gələni etməliyik. Bu isə bizim hər birimizdən asılıdır.

Biz Sizin ədalətliliyinizə, vaxtilə ortaq ölkənin və ortaq idealların bizə bəxş etdiyi bütün dəyərləri qiymətləndirməyi və yadda saxlamağı bacaran Azərbaycan xalqına xeyirxah münasibətinizə inanırıq.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri:

1. Səttarova Fatma Hüseyn qızı
2. Quliyev Məmməd Salman oğlu
3. Abdullayeva Natalya Borisovna
4. Yermakov Yurik Vladimiroviç
5. Ramazanov Nazim Tağı oğlu
6. Xarkovskaya Anna Qordeyevna
7. Belikov Aleksandr Vasilyeviç
8. Abdullayev Səfər İbad oğlu
9. Sarıyev Qara Alı oğlu
10. Timçenko İvan İvanoviç
11. Ömərov Qaflan İslam oğlu
12. İsgəndərov Ağababa Qənbərli oğlu
13. Vyuqin Mixail Daniloviç
14. Kravtsova Anna Petrovna
15. Mürsəlov Xasay Bayram oğlu
16. Həsənov Tamleyxa Abbas oğlu
17. Əliyev Əli Hüseyn oğlu
18. Baxışov Seyfulla Abdulla oğlu
19. Nəbiyev Daməd Məcid oğlu
20. Dadaşov Azər Tağı oğlu
21. Qasımova Valentina Mixaylovna
22. Qaziyeva Tacirə Həmid qızı
23. İsababayeva Həcər Müştaq qızı
24. Rəsulova Zinaida İliniçna
25. Frunze Natalya Artyomovna

# Azərbaycan Rus İcması Vəkil Abdullayevin ölümü ilə bağlı bəyanatla çıxış edib

İyunun 5-də Azərbaycan Rus İcmasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mixail Zabelin Vəkil Abdullayevin ölümü ilə bağlı bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Azərbaycan Rus İcması Rusiya Federasiyasının Novosibirsk vilayətində 19 yaşlı azərbaycanlı Vəkil Abdullayevin güllələnməsi ilə nəticələnmiş faciəli hadisəyə görə dərin narahatlığını bildirir.

Azərbaycan Rus İcması, respublika ictimaiyyəti belə hesab edə bilərdi ki, faciəli hadisə təsadüf nəticəsində baş verib, lakin, əgər Rusiya Federasiyası İctimai Palatasının üzvü, "Yedinaya Rossiya" partiyasından RF Dövlət Dumasına deputatlığa namizəd Mariya Butinanın polis işçisinin cinayətkar əməllərinə haqq qazandıran, Rusiya ictimaiyyətini istintaq orqanlarına təzyiq göstərməyə məcbur etmək məqsədilə millətlərarası ayrı-seçkiliyi qızışdıran təxribatçı sözləri olmasaydı, biz əmin olardıq ki, Rusiyanın istintaq orqanları bu faciəni hərtərəfli araşdıracaq və polis işçisi - baş leytenant A.Qusev layiqli cəzasını alacaq.

Mariya Butinanın sözləri bizə - beynəlmiləl, multikultural Azərbaycan cəmiyyətində yaşayan rus vətəndaşlarına açıq-aşkar millətçilik və şovinizm təsiri bağışladı.

Respublikanın 120 minlik rus əhalisini təmsil edən Azərbaycan Rus İcması M.Butinanın təxribatçı bəyanatlarına qəti etirazını bildirir.

Biz əminik ki, "Yedinaya Rossiya" partiyasının və Rusiya Federasiyası İctimai Palatasının rəhbərliyi öz nümayəndəsinin millətçi fikirlərinə prinsipial qiymət verəcək və hesab edirik ki, Rusiya Federasiyasının mötəbər orqanlarında belə bir insana yer olmamalıdır.

Azərbaycan Rus İcması ümidvar olduğunu bildirir ki, Rusiya ictimaiyyəti, ölkə parlamenti və hökuməti millətlərarası sülhün qorunub saxlanılması üçün zəruri tədbirlər görəcək. Biz əminik ki, iki xalq arasında dərin köklərə malik ənənəvi dostluq və qardaşlıq əlaqələri bundan sonra da genişlənəcək".



# Odlar ölkəsində Sürət zirvəsində



# Azərbaycan növbəti beynəlxalq idman tədbirini yüksək səviyyədə keçirir

*Əvvəli 1-ci səh.*

54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq birinci yeri tutdular. İslam dünyasının ən nüfuzlu idman yarışında iştirak edən əcnəbi atletlər, qonaqlar Azərbaycanla tanış oldular, ölkəmizin uğurlu inkişaf yolu keçdiyini gözləri ilə gördülər.

2019-cu il mayın 29-da isə Bakı qitənin nüfuzlu klub turnirlərindən olan UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Bakı Olimpiya Stadionunda keçirilmiş həlledici matçda İngiltərənin "Çelsi" və "Arsenal" komandaları üz-üzə gəldilər. 4:1 hesabı ilə qələbə qazanan "Çelsi" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

Final oyununu tələb olunan səviyyədə keçirmək üçün yerli təşkilat komitəsi nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra etmiş, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmişdi. Bakıya gəlmiş azarkeşlər həlledici matçın ən müasir arenada keçirildiyini qeyd etməklə yanaşı, Azərbaycan xalqının səmimiliyinə və qonaqpərvərliyinə, paytaxtın və bütövlükdə ölkənin sürətli inkişafına heyran qaldıqlarını bildirdilər.

## Yüksək təşkilatçılıq səviyyəsi

Azərbaycan Qran-prisinın üç gün davam etməsinə baxmayaraq, Bakıda uzun müddətdir bu idman hadisəsinin ab-havası yaşanır. Hazırlıq işləri aylar öncə başlayıb və əsas məqsəd "Formula-1"in cari mövsümdə 6-cı mərhələsi olan Azərbaycan Qran-prisini layiqincə təşkil etmək, ideal evsahibliyi nümunəsini ortaya qoymaqdır. Fərəhli haldır ki, Beynəlxalq Avtomobil Federasiyasının nümayəndələri, həmçinin yarışda iştirak edən pilotlar aparılan hazırlıq işlərini yüksək qiymətləndiriblər.

Beləliklə, bu günlərdə ölkəmizə təşrif gətirmiş media nümayəndələri, televiziya vasitəsilə yarışı izləyən yüz milyonlarla tamaşaçı Azərbaycanın yüksək evsahibliyinin şahidi olur. Tək yarışın keçirilməsi deyil, media nümayəndələrinin, "Formula-1" komandalarının üzvlərinin ölkəmizlə, milli dəyərlərimizlə tanışlığı, şəhərimizdə olduğu günlərdə vaxtlarını səmərəli keçirmələri üçün yaradılan şərait və sair Azərbaycanın mükəmməl evsahibliyi nümunəsinin ayrı-ayrı detallarıdır. Beləliklə, Azərbaycan yüksək təşkilatçılıq ənənəsinə bu dəfə də sadiqdir.

"Formula-1" dünyada geniş tamaşaçı auditoriyasına malikdir və izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunlarından, futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri ilk vaxtlar ancaq Avropa ölkələrində keçirilirdisə, hazırda bütün dünyanı əhatə edir. Yarışları Beynəlxalq Avtomobil Federasiyası (FIA) keçirir. 1904-cü ildə Parisdə yaradılan federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.

Xatırladaq ki, "Formula-1" üzrə ilk rəsmi dünya çempionatı 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunub. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparıb. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci çatan "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "Formula-1" yarışının ilk qalibi kimi tarixə düşüb.

## Bakıdakı yenilik marağı bir qədər də artırıb

"Formula-1" yarışlarında Azərbaycan beş il öncə dünya çempionatının Bakı mərhələsində yenilik tətbiq etmişdi. Bu, sıralama turları ilə bağlı idi. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırılırdı, 10 pilot isə 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa çıxırdı.

Yeni qaydalarda isə seansın sonunda yox, hər 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulur. "Formula-1" mütəxəssislərinin fikrincə, bu yenilik həyəcanı bir qədər də artırıb.

Yada salaq ki, 2019-cu ildə paytaxtımızda keçirilmiş "Formula-1" üzrə dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışmışdı. Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Valtteri Bottas 1 saat 31 dəqiqə 52,942 saniyəlik nəticə ilə "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin qalibi olmuşdu. İkinci yeri "Mercedes" komandasının digər üzvü Lyuis Hamilton, üçüncü yeri isə "Ferrari"nin sürücüsü Sebastyan Fettel tutmuşdular. Ötən il isə pandemiya ucbatından dünya çempionatının Azərbaycan mərhələsi ləğv olunmuşdur.

Şübhə yoxdur ki, bu il "Formula-1" kimi mötəbər idman tədbirinin Bakıda təşkili irimiqyaslı turnirlərin keçirilməsində Azərbaycanın malik olduğu potensialı növbəti dəfə nümayiş etdirəcək, ölkəmizin beynəlxalq idman aləmində nüfuzunun artmasını təmin edəcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***
















## Şarl Leklerin idarə etdiyi bolid yeni sürət qutusu ilə təchiz olunub



"Ferrari" komandasının pilotu Şarl Leklerin idarə etdiyi bolid "Formula-1" Azərbaycan Qran-prisində yeni sürət qutusu ilə təchiz olunub. Belə ki, Monakoda seçmə mərhələdə baş vermiş qəzadan sonra sürücünün avtomobilindəki sürət qutusunun zədələnmədiyi məlum olsa da, "Ferrari" təhlükəsizlik tədbirləri ilə əlaqədar onu yeniləməyi qərara alıb.

Monakolu pilotun bolidinin sürət qutusunun dəyişdirilməsi ilə əlaqədar "Formula-1" tərəfindən hər hansı cərimə tətbiq olunmayacaq.

## "Mercedes" Bakıda "Red Bull"a qarşı protest qaldıra bilər



2016-cı il "Formula-1" yarışının çempionu Niko Rosberq avstriyalılara məxsus bolidin qanadının "əyilgən" olması səbəbindən "Mercedes" ilə "Red Bull" arasında yaranan münaqişə barədə fikrini bildirib. "GrandPX.news" saytı N.Rosberqin bu sözlərini sitat gətirir: "Eşitdiyimə görə, Toto Volff ("Mercedes" komandasının rəhbəri) "Red Bull" ilə deyil, "Ferrari" ilə mübarizə aparmağa üstünlük verdiyini söyləyib. Bu, onun tərəfindən heç də yaxşı səslənmir.

Toto "Red Bull"un rəhbəri Kristian Horner barədə heç də yaxşı fikirdə deyil. Zənnimcə, biz həqiqətən də "Merdeces" ilə "Red Bull" arasında baş verənləri görə biləcəyik. Hər şey "Mercedes"in "Red Bull"un arxa qanadına dair qəti etirazını bildirib-bildirməyəcəyindən asılıdır. Toto artıq bunu etmək niyyətində olduğunu söyləyib və bu, Bakıda təşkil olunacaq növbəti yürüşdə baş verə bilər. Bu, "Formula-1" üçün mühüm mövzudur. Fikrimcə, əgər Volff bu addımı atarsa, o halda "Red Bull" da buna laqeyd qalmayacaq".

## Lekler və Hamilton ilk iki pillədə qərarlaşıblar

"Formula-1" Azərbaycan Qran-prisinin sıralanma turu başa çatıb. "Ferrari" və "Mercedes" komandalarının pilotları Şarl Lekler və Luis Hamilton ilk iki pillədə qərarlaşıblar. Ş.Lekler 1 dəqiqə 41,218, L.Hamilton isə 1 dəqiqə 41,450 saniyəlik nəticə göstəriblər. "Red Bull Racing"in pilotu Maks Ferstappen (1 dəqiqə 41,563 saniyə) üçüncü yerdə qərarlaşıb.



Gərgin idman mübarizəsinin yaşandığı "Formula-1" Azərbaycan Qran-prisinin sıralama turunda bir neçə qəza baş verib. Belə ki, "Aston Martin" komandasının pilotu Lans Stroll 15-ci döngədən çıxarkən bolidi səddə çırpılıb. Təkəri zədələnən kanadalı pilotun bolidi yararsız hala düşüb. Növbəti qəza da 15-ci döngədə baş verib. Bu dəfə "Alfa Romeo"nun üzvü Antonio Covinatsi sürəti tənzimləyə bilməyərək qoruyucu sədlə toqquşub.

Qeyd edək ki, sıralanma turunun nəticələrinə əsasən, bu gün keçiriləcək əsas yarışda pilotların düzülüşü müəyyənləşib.

## Ferstappen əsas yarışda qələbəyə ümidlidir



"Red Bull Racing" komandasının pilotu Maks Ferstappen mediaya açıqlamasında deyib ki, Bakıda əsas məsələ iyunun 6-da keçiriləcək yarışda necə çıxış etməkdir.

Paytaxtımızdakı sıralanma turunda üçüncü yeri tutan Ferstappen qalib gəlmək üçün əlindən gələni əsirgəməyəciyini diqqətə çatdırıb: "Düzünü desəm, çətin sıralanma turu idi. Lakin əlimizdən heç nə gəlmir. Üçüncü olduq. Bolidimiz yaxşı idi və üçüncü sərbəst yürüşlərdən sonra yaxşı qayıtdıq. Hər şey qaydasında gedirdi. Amma son sessiyada qəza olması bizə problem yaratdı. Şəhər tipli traslarda belə hallar çox olur. Təbii ki, bir az da öndən başlamaq istərdik, lakin sabah hər şey ola bilər. Sıralanma turunda gördüyünüz kimi, hər şey mümkündür. Bəlkə əsas yarış günündə yenə qəzalar olar. Ümid edirəm ki, yaxşı start alaram və sonra görək nə olur. Luislə mübarizəyə hazıram".

## Jüri Vips "Formula-2"də ikinci sprint yürüşündə 1-ci oldu



"Hitech Grand Prix" komandasının pilotu Jüri Vips Bakıda "Formula-2" yarışlarının ikinci sprint yürüşünün qalibi olub. "Charouz Racing System"in üzvü David Bekmann yarışı ikinci, Cehan Daruvala ("Carlin") isə üçüncü sırada tamamlayıblar.

Daha sonra "Formula-2" yarışının sıralanma turu keçirilib. "Hitech Grand Prix" komandasının pilotu Liam Layson sıralama turunun qalibi olub. L.Laysonun komanda yoldaşı Jüri Vips ikinci, "Prema Racing" komandasının pilotu Oskar Piastri isə üçüncü pillədə qərarlaşıblar.

## Sinqapur Qran-prisi ləğv edildi




Sinqapur Qran-prisi ləğv edilmişdir. "Formula-1"in rəhbərliyi və yerli hakimiyyət orqanları razılaşmışdılar ki, COVID-19 infeksiyası ilə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər üzündən yarışın keçirilməsi mümkün deyil.

Küçə trasında keçirilməli olan yarış oktyabrın 3-ə planlaşdırılmışdı, amma dalbadal ikinci il baş tutmayacaq. Bunun əvəzinə yarış Türkiyə, Çin və ya ABŞ-da keçiriləcək.

Qran-prinin promouteri Kolin Sin bildirmişdir ki, azarkeşlər "Formula-1"in Sinqapur mərhələsini səbirsizliklə gözləyirdilər: "Ar-arda iki ləğv qərarı qəbul etmək olduqca çətin idi, amma ölkədə kütləvi tədbirlərə qoyulmuş məhdudiyyətlər səbəbindən seçimimiz olmadı". O, əlavə etmişdir ki, "belə bir şəraitdə tamaşaçıların, podratçıların, könüllülərin və işçilərin sağlamlığına və təhlükəsizliyinə zəmanət vermək mümkün deyil, çünki təhlükəsizlik başlıca prioritetimizdir".

"Formula-1"in nümayəndəsi də vəziyyətə münasibət bildirmişdir: "Belə qeyri-sabit zamanda bütün promouterlərlə işi davam etdiririk. Lazım gəlsə, mərhələləri əvəzləmək üçün kifayət qədər variantımız var".

## "Formula-2": Birinci sprint yürüşünün qalibi məlum oldu



İyunun 5-də Bakıda "Formula-2" yarışlarının birinci sprint yürüşünün qalibi müəyyənləşib.

Yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb.

Pilotlar Bakı şəhər halqasında 21 dövrə vurublar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda "Prema Racing" komandasının rusiyalı pilotu Robert Şvartsman birinci olub. "Carlin" komandasının üzvü Dan Tiktum yarışı ikinci, "UNİ-Virtuosi"nin pilotu Guanyu Zhou isə üçüncü yerləri tutublar.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# İki əsrlik tariximizin şanlı Qələbəsi

**Təcavüzkar Ermənistan Azərbaycanın qədim yurd yeri, zəngin mədəniyyət məbədi sayılan Qarabağda zaman-zaman qanlı müharibələr törətmiş, etnik təmizləmə siyasəti aparmış, xalqımızın əzəli dədə-baba torpaqlarını işğala məruz qoymuşdur.**

Mədəni, sivil, əxlaqi dəyərləri yüksək olan xalqlar tarixboyu istilanı, işğalçılığı, müharibəni heç vaxt dəstəkləməyiblər. Azərbaycan da həmişə sülh missiyasını yerinə yetirib, münaqişələrdən qaçaraq əmin-amanlığın tərəfdarı olub. Ancaq tariximiz səhifələndikcə görürük ki, təcavüzkar, qəsbkar qonşularımız hər zaman bizə qarşı soyqırımı törətmiş, dinc, əliyalın insanlara qarşı amansızlıq nümayiş etdirmişlər. Məhz yaxın keçmişimizdə işğalçılıqla əldə etdikləri torpaqlarımızdan nə xoşluqla çəkilmək istəyiblər, nə də beynəlxalq hüquqa məhəl qoyublar. Azərbaycan dövləti torpaqları işğala məruz qaldığı vaxtdan hər zaman faşist xislətli erməniləri sülhə, barışa dəvət edib. Ancaq heç zaman ermənilər mənfur niyyətlərindən çəkinməyiblər. Hər bir səbrin isə həddi-hüdudu olur. Azadlıq uğrunda hər cür müharibə müqəddəs hesab edilib. Azərbaycanın apardığı bu müqəddəs Vətən müharibəsinin Qələbə ilə bitməsi də tarixi zərurət idi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayıb və hər zaman olduğu kimi, öz amalına qovuşub.

Prezident İlham Əliyevin son 18 ildə həyata keçirdiyi qətiyyətli siyasət, güclü dövlət və ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbi oldu. Müzəffər Ordumuz Azərbaycan xalqının tarixinə ən şanlı, şərəfli və qürurverici səhifəsini yazdı. Ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı 44 günlük müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi. Hər kəs qarabağlı oldu həmin günlərdə. İllərlə yaşadığımız ağrı-acılar bir andaca sevincə çevrildi. Xalqımızın ölməkdə olan ümidləri bir qığılcımdan alov aldı."Dağlıq Qarabağ münaqişəsi" ifadəsi öz aktuallığını itirərək, sanki ermənilərin iblisləşmiş siyasətinə birdəfəlik son qoydu. Azərbaycan əsgəri beynəlxalq hüquq prinsipləri əsasında ATƏT-in Minsk qrupunun 28 illik yarıtmaz fəaliyyətinə xitam verərək tarixi ədaləti bərpa etdi. "Mən artıq qaçqın deyiləm" sözlərini eşitməklə sanki dünyanın ən xoşbəxt insanı oldum. Yaşadığım həmin anlar inanıram ki, hər bir qarabağlı üçün xoşbəxtlik kredosu sayıldı.

Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir. Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyev ordunun və xalqın həmrəyliyi ilə 10 noyabr 2020-ci il tarixdə həm siyasi, həm də müharibə meydanında qələbə çalaraq, Ermənistanın hərbi kapitulyasiyasına nail oldu. Bəşəriyyətə haqqın, ədalətin, böyük dövlətlərin tapdağından qurtula biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdi. Dövlətimiz qısa zamanda əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. Zəfərimizə mənəvi məna verən isə 28 il işğal altında olan torpaqlarımızın, Füzulinin, Cəbrayılın, Qubadlının, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan, Qarabağın incisi sayılan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi, təbiətin canlı muzeyi sayılan doğma Kəlbəcərimizin, Laçınımızın və Ağdamımızın döyüşsüz boşaldılması oldu. Beləliklə, Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı xalqın özünə inamını qaytardı. Bu Qələbə eyni zamanda xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi.

Unutmaq olmaz ki, düşmən Azərbaycan xalqına hər zaman nifrət hissi ilə yaşayıb, bu, mənim sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla, işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsinin iştirakçısı kimi öz gözlərimlə gördüklərimin qənaətidir. Çoxəsrlik tarixə malik Qarabağ ərazilərində kəndlərin, şəhərlərin, qəsəbələrin, yaşayış binalarının, məktəblərin, xəstəxanaların, ictimai binaların, tarixi abidələrin, məzarlıqların və məscidlərin 99 faizi darmadağın edilmişdir. Sanki faşizm ideologiyası ilə tərbiyələnən ermənilər Azərbaycanın tarixini, mədəni irsini silməyə çalışıblar. O yerlərə baxdıqca beynəlxalq ictimaiyyəti aldadan təcavüzkar etmənilərin vandallığının şahidi olursan.

Nəhayət, işğaldan azad edilən Qarabağı dünya tanıdı. Gördü ki, bu torpaqlar ermənilərə çox yaddır, onlar dünya üçün təhlükədən başqa bir şey deyildir. Hətta böyük miqyaslı əraziləri minalamaqla da onlar dinc insanların qanına susayır, ölümünə səbəb olurlar.

İqtisadi layihələrin sürətlə reallaşmasına mane olan minalanmış ərazilərin xəritələrini verməkdən belə imtina etməklə ermənilər özlərinin insanlığa qarşı necə iyrənc olduqlarını bəşəriyyətə bir daha sübut etdilər. Lakin biz - o torpaqların gerçək sahibləri qoynunda bəslədiyi ləl-cəvahirat dolu torpaqlardan minaları çox çətin proses olsa da, təmizləməyi bacarırıq. Və bununla da sübut edirik ki, torpaq müqəddəsdir, onu qorumaq lazımdır, məhv etmək yox! Qarabağda erməni vandalizminin əl izləri silindikcə, torpaq təmizlənir və əzəli simasına dönür. Sevindiricidir ki, cənnət torpaqların azad olunması, Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi, eyni vaxtda "Xarıbülbül" musiqi festivalının yenidən qalalar səltənətində, zirvələr kəhkəşanında təşkil edilməsi Qarabağa yeni nəfəs verdi. Qarabağın baş tacı olan Şuşa yenidən gerçək sahiblərini qoynuna alıb, füsünkar təbiət gözəllikləri ilə dünyaya açıldı.

İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi ilə düşmənin törətdiyi hərbi cinayətlərin uçotu və dəymiş ziyan hesablanacaq, beynəlxalq ekspertlər dəvətə biganə qalmayacaqlar. Bəşəriyyət üçün təhlükə sayılan erməni vandalları həm fərdi, həm də mütəşəkkil qaydada beynəlxalq məhkəmələr qarşısında cavab verəcək, üzərlərinə düşən təzminatın ödənilməsi beynəlxalq hüquqla öz təsdiqini tapacaq.

Azərbaycan dövlətinin siyasəti qaranlıqdan doğan günəş tək hərarəti ilə Qarabağa yenidən can verir. Bu gün təbiətin möcüzəsi sayılan Qarabağ torpaqlarında quruculuq-bərpa işləri uğurla davam edir.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Məqsəd həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. İnanırıq ki, 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda tezliklə canlanmanın və məskunlaşmanın şahidi olacağıq.

Azərbaycan bu gün bütün dünyaya haqq-ədalət uğrunda qətiyyətli mübarizəsini nümayiş etdirir. Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, rəşadətli Ordumuzun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş möhtəşəm Qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir.

*Hikmət ŞAHMURADOV,*
*Kəlbəcər Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi,*
*Vətən müharibəsinin iştirakçısı*

● Şəhidlər ölməz, Vətən bölünməz!

# Nişan üzüyü boxçada qaldı

**Şəhidlər xiyabanında bir igid uyuyur. Bu qəhrəman Ermənistanın Hamamlı mahalının Spitak rayonunun Saral kəndində 1970-ci ildə doğulmuş Əsəd Cəlal oğlu Əhmədovdur. Müəllim ailəsində uşaqlığı keçən, gələcəyə əhdpeyman bağlayan, lakin arzuları ürəyində qalan, mərmər daşlarda heykələ dönüb əbədiyyətə qovuşan Əsəd Əhmədov haqqında fikirlərimi hekayə halında cəmləşdirməyə çalışdım. Onun haqqında məlumatları tək bacısı olan məktəbimizin müəllimi Afidə Əhmədovadan aldım.**



Əsəd dünyaya göz açanda tale onun ömür kitabına acı bir kədər yazıbmış. Bu qəhrəman oğul Daşdəmirlilər tayfasından olan Qaçaq Bəkirin nəslindəndir. Atalar gözəl deyib: "Ot kökü üstə bitər." Belə ki, Bəkir Qurban oğlu çar Rusiyası dövründə qaçaqçılıq edib şöhrətlənmişdir. Həmin vaxt bir erməni ilə arasında münaqişə olur və zoğal çubuğu ilə onu məhv edir. Bəli, tarix təkrar olunur.

Əsəd Əhmədov ziyalı ailəsində boyümüş, kənddə nüfuz qazanmış atası Cəlal müəllimdən dərs almışdı. Ailənin beşinci övladı olan Əsəd orta məktəbdə oxuyarkən davranışı, biliyi ilə hamıdan seçilərdi.

1988-ci ildə Spitak rayonunda zəlzələ baş verir. Həmin vaxt oradan köçürülənlərdən biri də Cəlal müəllimin ailəsi olur. Bakıya pənah gətirən Əsəd 5 nömrəli texniki-peşə məktəbində elektrik peşəsinə yiyələnir. 1989-cu ildə Sovet Ordusu sıralarında Almaniyada hərbi xidmət keçir. Xidmətdən sonra Milli Orduya üzv yazılır. 1992-ci ildə Xocalı faciəsindən sarsılan Əsəd cəbhəyə yola düşür. Həmin vaxt Şuşanın Zarıslı, Tuşssu, Salatınkənd yaşayış məntəqələri uğrunda döyüşlərdə fəal iştirak edərək onlarca erməni quldurunu məhv edir. Ölümdən qorxmayan Əsədin həyat yolu kimi, döyüş yolu da qısa olur.

Alın yazısı deyilən bir həqiqət var. Alnına nə yazılıbsa, o da olmalıdır. Şəhidlik də alın yazısıdır.

Vətənpərvərlik ailədən başlayır. Simuzər ananın, Cəlal müəllimin tərbiyəsi buna bariz nümunədir. Əsəd qəhrəmanlığı Böyük Vətən müharibəsi illərində həlak olmuş, adları Azərbaycan Sovet Ensiklopediyasında yer almış əmiləri Veysəl və Rəsul Əhmədovlardan öyrənmişdir.

Cəlal müəllim ailədə 5 igid oğul, 1 qız övladı böyütmüşdü. Qardaşı Qarabağ qazisi kapitan İntiqam Əhmədov da bu il dünyasını dəyişmişdi. Bir ailəyə 2 zərbə vurulmuşdu.

Əsədin vətənpərvərliyi haqqında sinif müəllimi Aslan müəllim və sinif rəhbəri Şahbəndiyar müəllim danışarkən onun yenidən orduya getməsinə rayonumuzdan 15 nəfərin, kəndimizdən isə 3 nəfərin qətlə yetirildiyini əsas gətirirdilər. Anası Simuzər ana bir dəfə onun əlinin yaralandığını görüb narahat olanda o, deyir: "Qəm yemə, ana! Əlimin yaralanması nə böyük şeydir?"

Həmin vaxt o, bacısı Afidəni qızıl mağazasına apararaq bir nişan üzüyü və sırğa alır: "Bacı, saxla, erməniləri qovan kimi bilirsən də..." Gedəndə atası Cəlal müəllimə deyir: "Ölsəm, qəhrəman kimi öləcəyəm, girov düşməyimi ağlına belə gətirmə".

Sən demə, insan öz qısa ömrü ilə bütöv bir ömür yaşaya bilərmiş və ölümdən yüksəkdə dayanan bir zirvəyə qalxarmış. Bəli, Əsəd də şərəfli ölümü ilə əbədi ölümsüzlüyə qovuşdu.

İyulun 31-i onun son döyüşü oldu. Qaraqaya və Kətik yaşayış məntəqələrinin azad edilməsində düşmən onu qana boyadı. O, gəzib doymadığı Dəlidağı, Kərim bulağını, Pəmbək çayını, dostları və nişan göndərəcəyi sevdiyi qızı gözləri önünə gətirdi. Qəlpələr onun mükafat aldığı pulları da qana boyamışdı. Bəlkə də o, son dəfə anasını xatırladı:

*Mənim üçün ağlama,*
*Ana, şəhid olmuşam.*
*Ürəyimi dağlama,*
*Haqqa şahid olmuşam.*

İsti yay günlərinin birində Əhmədovlar ailəsinin qapısı təlaşla döyüldü. Hərbi paltarlı şəxslər çətin də olsa, ölüm xəbərini onlara çatdırdılar. Bacısı Afidə hönkürərək "Nişan üzüyü boxçada, arzun ürəyində qaldı, qardaş!" dedi.

Əsəd, Vətən oğlu, sən şəhidlik qismətinlə müqəddəsliyə qovuşdun. Anadan olduğun ayda da əbədiyyətə qovuşdun. Nişan üzüyün gözdağı oldu Simuzər anaya, Afidə bacıya, Cəlal ataya. Adını gizli saxladığın bir gözəlin bəxt ulduzu beləcə söndü. Cəlal kişi sənin yoxluğuna dözə bilmədi, aramızdan vaxtsız getdi. Simuzər ana isə hər qapı açılıb örtüləndə baxır, bir oğul yolu gözləyir: "Başını uca tut, ana, sənin oğlun Vətən, torpaq uğrunda şəhid olub".

Beləcə, bir ömür də soldu. İki gəncin taleyi yarımçıq qaldı. Vətən eşqi səni Cəlal müəllimdən, Simuzər anadan alıb el-obaya, Azərbaycana oğul elədi. Vətən oğlu isə heç zaman unudulmur.

5 fevral 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti sənə "Milli Qəhrəman" fəxri adı verdi. Simuzər anaya vətənpərvər oğul tərbiyə etdiyinə görə "Mehriban ana" medalı təqdim edildi.

Şəhidlər xiyabanında məzarının qara lenti üzərində belə bir ürəkdağlayan sözlər yazılmışdı: "Ölümünə inanmıram, Əsəd! Mən səni dəlicəsinə sevirdim, sevirəm, sevəcəyəm də. Sonu necə olacaq bilmirəm..."

Yəqin ki, bu sətirlər adını gizli saxladığın el qızının sənə son sözləri idi.

Bakının Yasamal rayonunda bir küçə və 308 nömrəli məktəb Əsəd Əhmədovun adını daşıyır. Torpağı vətənləşdirən oğullar adlarını da əbədiləşdirirlər.

Kaş yaşayıb Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti ilə bu müharibədə necə qalib olduğumuzu görəydin.

44 günlük müharibədən zəfərlə çıxmağımız hamını sevindirdi. Bu sevinc payı sizə də çatır, çünki qələbəni ilk dəfə sizlər çalmısınız.

Rahat yatın, elin qəhrəman oğulları, torpaqlarımız işğaldan azad olunub və sükan xalqın yeganə etibar etdiyi, məğrur sərkərdəmiz İlham Əliyevdədir.

Ümid edirik ki, bundan sonra da Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qədim Azərbaycan torpaqları olan Zəngəzur, Göyçə, İrəvan mahalları da işğaldan azad olunacaqdır.

*Nazilə ƏLİYEVA,*
*Bakı şəhər 177 nömrəli tam orta məktəbin ədəbiyyat müəllimi*

● Dövlət qayğısı

## Abşeronda qazi və şəhid övladlarına qayğıkeşliklə yanaşılır



**Abşeron rayonunda şəhid ailələri ilə görüş keçirilib. Rayon icra hakimiyyyətinin başçısı İ.Gülməmmədova Vətən müharibəsi qəhrəmanı, şəhid kapitan Veysəl Musibov və şəhid Ruhin Xəlilovun ailə üzvlərinin, o cümlədən övladlarının problemləri ilə maraqlanınb.**

Ölkəmizdə uşaq hüquqlarının yüksək səviyyədə qorunduğunun qeyd edildiyi görüşdə fidanlarımızın həm təhsil sahəsi üzrə, həm də asudə vaxtlarının keçirilməsi istiqamətində mühüm işlərin görüldüyü vurğulanıb. Dövlət tərəfindən uşaqların sağlam və firavan böyüməsi, onların sosial rifahının yüksəldilməsi istiqamətində tədbirlər görüldüyünü deyən İ.Gülməmmədova şəhid övladlarının problemlərinin həllinin dövlət qurumlarının vacib məsələsi olduğunu, gələcəyimiz olan uşaqların təhlükəsiz şəraitdə yaşayıb böyüməsi üçün lazımi şəraitin yaradıldığını bildirib.

Sonda hər iki ailəyə rayon rəhbərliyinin qiymətli hədiyyələri təqdim edilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

● Vətənə layiq oğullar

# Qələbə sorağın daim zirvələrdən gəlsin, qazi komandir!

**Səsin hay-harayı deyirlər ki, min illərə gedir. Klassiklərimizin əsrlərin o tayından gələn səs-sədası da bu mənada unudulmazdır, yaddaqalandır. Musiqili səsə sərhəd olmaz. Bunu da dili nəğməli nəğməkarlarımız deyiblər. Çünki zaman-zaman sınaqdan çıxıb.**

Lakin unutmayaq ki, səs-soraqlılarımızın heç də hamısının dili nəğməli deyil. Elələri də olub ki, Koroğlu, Qaçaq Nəbi, Sultan bəy kimi, səsinin zərbindən və zəhmindən düşmənin bağrı yarılıb.

Bəli, məhz belə ərənlərimizin səsi 44 günlük Vətən müharibəsində düşmənə ağır zərbə oldu! Şuşa və Laçın dağlarında igidlərimizin qartal baxışları erməniləri çaş-baş qoydu. Ona görə silah-sursatını, boş qalan papağını atıb qaçmağa məcbur oldular.

Torpaq, el-oba, yurd uğrunda vuruşmaq hər bir kəsin müqəddəs borcudur. Düşmənlə üz-üzə gələn oğullarımız canlarından keçərək şəhidlik zirvəsinə ucalmaqla əbədiyyət qazandılar. 27 sentyabr 2020-ci il tarixindən sonra xalqımızın vətənpərvər oğulları düşmən üzərinə yalnız sıradan bir vətən övladı kimi yox, dağların zirvəsində qanad çalan qartal kimi şığıdılar!

...Yaralansa da döyüşdən qalmayan belə oğullardan biri də 1995-ci ildə qədim Şamaxı yurdunda dünyaya göz açan, Şuşa və Laçınadək döyüş yolu keçən, bu gün də səs-sorağı dağlardan gələn Xəlilov Elmir Məmməd oğludur.

Qobustan rayonunun O.Badayoğlu adına Bədəlli kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Samirə Xəlilova deyir ki, qardaşı Elmir uşaqlıqdan hərb sənətini sevərək seçib. O, Şamaxıdakı M.Hadi adına 9 saylı orta məktəbdə oxuyub. Daha sonra Şamaxı şəhər texniki humanitar və təbiət fənləri təmayüllü internat tipli liseyi bitirib: "Liseyi başa vurduqdan sonra 2012-ci ildə Azərbaycan Ali Hərbi Akademiyasına qəbul olunub. 2016-cı ildə akademiyanı bitirməklə artillerist ixtisasına yiyələnib. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Elmirin də döyüş yolu uzun olub. O, Talışkənd, Suqovuşan, Ağdərə, Qubadlı istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib..."

Elmir Xəlilovun hərb sənətini seçməsi heç də təsadüfi deyil. Atası Məmməd



kişi 1993-cü ildə Birinci Qarabağ savaşında iştirak edib: "O zaman mən altıaylıq körpə olmuşam. Ermənilərin qəddarlığının şahidi olan atam tək qardaşımın da hərb sənətini seçməsini istəyib. Ona görə də onun arzusuna qarşı çıxmadı. O, ali hərbi məktəbi bitirib qulluğa başlayandan ön cəbhədə, düşmənlə üz-üzə olub. Ötən il noyabrın 6-da yaralanıb, amma bu xəbəri ailəmizdən bir müddət gizlədib. Bir qədər yüngülləşdikdən sonra xəbərimiz olub. Şükür, sağalaraq yenidən öz hərbi xidmətini Laçın dağlarında davam etdirir..."

Baş leytenant Elmir Xəlilov Vətənə, xalqa, dövlətə xidməti həm peşə, həm də özünün vətənpərvərlik borcu hesab edir. Ona görə də o, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Laçının azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Anası Zümrüd, atası Məmməd, anasının adını daşıyan bir yaşlı qız balası Zümrüd, ömür-gün yoldaşı Günay xanım, bacıları - Samirə, tələbə Ramilə bundan sonra da komandir, baş leytenant Elmir Xəlilovdan Vətənə layiqli xidmət göstərəcəyinə dair əminliklə hər gün xoş soraq gözləyirlər. Səsin daim zirvələrdən gəlsin, qazi komandir!

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# «Şahdəniz» - dəniz yataqlarının «şah»ı

## Bu zəngin qaz-kondensat mənbəyi 25 illiyini qeyd edir





Əvvəli 1-ci səh.

HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib.

Xatırladaq ki, "Şahdəniz" yatağı Xəzərin dərinsulu şelfində, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50 metrdən 600 metrədək dəyişdiyi ərazidə yerləşir. Bu nəhəng yatağın sahəsi 140 kvadratkilometrdən çoxdur.

"Şahdəniz" 1999-cu ildə kəşf olunub. Artıq 15 ilə yaxındır Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Azərbaycanı, Gürcüstanı və Türkiyəni təhlükəsiz və ahəngdar şəkildə qazla təchiz edir. Belə ki, yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində ilk hasilat 2006-cı ildə əldə olunub. Həmin il istifadəyə verilən CQBK indiyədək təxminən 96 milyard kubmetr "Şahdəniz" qazı ixrac edib. Hazırda " Şahdəniz-1"dən ildə 10 milyard kubmetrdən çox qaz hasil edilir və sözügedən üç ölkəyə çatdırılır.

"Şahdəniz"in nəhəngliyini göstərən faktlardan biri də odur ki, yataq iki fazada işlənir. 2013-cü il dekabrın 17-də "Şahdəniz" konsorsiumu layihənin ikinci mərhələsinin işlənməsi üçün yekun investisiya qərarını elan edib. "Şahdəniz-2"dən hasilata 2018-ci ildə başlanıb. Buradan ildə əlavə 16 milyard kubmetr qaz hasil olunacaq və nəticədə yataq üzrə ümumi hasilat həcmi ildə 26 milyard kubmetrə çatacaq.

İlk qaz əldə olunandan bu ilin birinci rübünün sonunadək "Şahdəniz"dən ümumilikdə 140 milyard kubmetr qaz və təxminən 33 milyon ton kondensat hasil edilib."Şahdəniz"in mövcud qurğularının hasilat gücü hazırda gündə 58 milyon (ildə 21 milyarddan artıq) standart kubmetrdir.

Buradakı quyular məhsuldarlığı ilə seçilir. Yatağın ən məhsuldar quyusundan hazırda hasilat gündə 36 min barel neft ekvivalenti təşkil edir. Bugünə qədər yataqda ümumilikdə 32 quyu, o cümlədən "Şahdəniz-1" çərçivəsində 11, "Şahdəniz-2" çərçivəsində isə 21 quyu qazılıb. Onlardan 19-u hazırda istismardadır.

Layihə texniki təhlükəsizlik baxımından da yüksək göstəricilərə nail olub. İndiyədək "Şahdəniz" çərçivəsində 14 ətraf mühitə təsirin qiymətləndirilməsi və 48 dəniz, quru və sahilyanı ərazilər üzrə monitorinq tədqiqatları aparılıb.

"Şahdəniz" Xəzərə həmçinin qabaqcıl texnoloji təcrübənin gətirilməsində böyük rol oynayıb. Belə ki, yatağının işlənməsi zamanı bir sıra texniki çətinliklər ortaya çıxmışdı. Buraya yüksək lay-kollektor təzyiqləri, dərin sularda yerləşmə və nəhəng coğrafi ərazini əhatə etmə səbəbindən lay-kollektora girişin mürəkkəbliyi daxil idi. Bu çətinliklərin öhdəsindən gəlmək üçün "Şahdəniz" layihəsində qabaqcıl sualtı və qazma texnologiyaları tətbiq olundu. Onlardan bəziləri Xəzərdə ilk dəfə istifadə edilirdi.

"Şahdəniz" yatağının işlənməsi bir çox sahələrdə yerli potensialın və texnoloji imkanların artmasına təkan verib. Məsələn, "Şahdəniz-2" platformalarının inşası ilk dəfə tam olaraq Azərbaycanın yerli resurslarından və infrastrukturundan istifadə edilərək həyata keçirilib.

Layihə ölkənin dəniz gəmilərinin imkanlarının genişləndirilməsinə də kömək göstərib. Layihə çərçivəsində istifadəyə verilmiş müasir "Xankəndi" sualtı tikinti gəmisi xüsusi olaraq "Şahdəniz"də sualtı tikinti işlərini dəstəkləmək üçün inşa edilib.

"Şahdəniz" işlənməsinin hər iki mərhələsində tikinti və istismar əməliyyatlarında region əhalisinin məşğulluğuna sanballı dəstək verib. "Şahdəniz-1"in işə salınmasında 5000-dən çox insan iştirak edib. "Şahdəniz-2"nin işlənməsinin pik həddində isə Azərbaycan və Gürcüstanda 30 mindən çox iş yeri yaradılıb . Yerli işçi qüvvəsinin bacarıqlarını inkişaf etdirmək üçün hərtərəfli təlim və təhsil proqramları keçirilib. Eləcə də yüzlərlə Azərbaycan şirkətinə öz potensialından istifadə etməyə və neft-qaz sənayesi layihələri üçün təchizatçı olmağa imkan verib.

Keçən ilin sonunda 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin tamamlanması nəticəsində "Şahdəniz" Xəzərdən uzaqlarda yerləşən Avropa istehlakçılarını qazla təmin etməklə qitə üçün yeni enerji təchizatı mənbəyinə çevrilib.

"Şahdəniz" üzrə sazişin imzalanmasından bəri keçən 25 il Azərbaycanın neft-qaz sənayesinin yeni tarixində mühüm mərhələdir. Bu, həmçinin SOCAR, BP və "Şahdəniz" sazişi üzrə bütün digər tərəfdaşlar üçün əhəmiyyətli bir dövrdür.

"Şahdəniz" yatağının kəşf edilməsi və işlənməsi Azərbaycanın regional və beynəlxalq miqyasda iri qaz təchizatçısı kimi rolunu artırıb. Ölkəmizi ən irihəcmli birbaşa xarici investisiya ilə təmin edib, qarşıdan gələn onilliklər ərzində neft-qaz gəlirlərinin artmasına zəmin yaradıb. Bu layihə Azərbaycanın iqtisadiyyatını getdikcə daha da gücləndirəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan dünyada tolerant və multikultural ölkə kimi tanınır

Əvvəli 1-ci səh.



Multikulturalizm başqa xalqın nümayəndəsinə, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Həmçinin multikulturalizm elə bir siyasətdir ki, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir.

Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan "Qırmızı qəsəbə", İvanovka və başqa kəndlər dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Bunun bariz nümunəsini Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mayın 15-də Qəbələ rayonuna səfəri zamanı bir daha müşahidə etdik. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsini, Müqəddəs Yelisey adına Cotari kilsəsini ziyarət etdilər. Bu, əlbəttə ki, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi, bütün dini konfessiyalara dövlət dəstəyinin növbəti bariz nümunəsidir. Xatırladaq ki, Müqəddəs Məryəm Ana Alban kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanıb, 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri tamamlanıb. Bu tarixi irsin yenidən bərpası Azərbaycanda multikultural dəyərlərə verilən önəmin göstəricisidir. Udilər bu gün alban kilsəsinin varisləridir, xristianlığı qoruyub saxlayıblar. Yenidənqurma zamanı tikilinin kərpicləri, daşları bərpa olunub, həyətyanı sahə abadlaşdırılıb, bulaq və üç gölməçə yaradılıb. Kilsənin tavanı, döşəməsi dəyişdirilib. Kilsənin aşağı hissəsi XII əsrdə tikilib. Müqəddəs Məryəm Ana kilsəsi Azərbaycanda ən böyük kafedral kilsədir. İkinci hissənin tikintisi isə 1898-ci ildə davam etdirilib və bərpa olunub. Tarixi özündə əks etdirən Müqəddəs Məryəm Ana kilsəsinin bərpası Afina memarlığına uyğun olaraq aparılıb.

Prezident İlham Əliyev kilsədə olarkən deyib ki, udi xalqının çox böyük tarixi mirası var: "İndi həm Qəbələ rayonu ərazisində və eyni zamanda, azad edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz. Siz Xudavəngdə bir neçə dəfə olmusunuz".

Dövlət başçısı əlavə edib ki, Şuşada keçirilən "Xarıbülbül" festivalında udi xalqının nümayəndələri çıxış ediblər: "Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər. Eyni zamanda, biz hamımız birliyimizi nümayiş etdiririk və bu kilsənin bərpa edilməsi də bizim birliyimizi təcəssüm etdirir".

Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Tolerantlığın nümunələrindən biri olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını məhz Qəbələnin Nic qəsəbəsində yaşayır. Azərbaycan Prezidenti həmin gün Nic qəsəbəsində yerləşən Müqəddəs Yelisey adına Cotari kilsəsində də olmuşdur. Nic qəsəbəsindəki bu kilsə də Heydər Əliyev Fondu tərəfindən 2006-cı ildə əsaslı bərpa olunaraq Alban-Udi Xristian dini icmasının istifadəsinə verilib. Müqəddəs Yelisey kilsəsi 1823-cü ildə tikilib. Azərbaycanın qədim yerli xalqlarından biri olan udilər haqqında hələ Herodot, Plini və Strabonun əsərlərində məlumat verilib. Dünyanın etnik xəritəsində udi adlı etnos bu gün əsasən Azərbaycan ərazisində mövcuddur. Udilər Qafqazın qədim sakinlərindəndir, dilləri Qafqaz dilləri ailəsinin ləzgi yarımqrupuna məxsus olub. Bu gün faşizmi dövlət siyasətinə çevirən, monoetnik ölkə olan, 30 ilə yaxın işğalda saxladığı Azərbaycan ərazilərində tarixi-dini abidələri dağıdan, udilərə və digər azsaylı millətlərə məxsus dini abidələri özününküləşdirməyə çalışan Ermənistandan fərqli olaraq Azərbaycan multikultural ənənələri, tolerantlığı ilə nümunə olmaqda davam edir.

Bu kimi nümunələrə ölkəmizin bütün bölgələrində rast gəlmək mümkündür. Tolerantlıq və multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcuddur. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı məkan olub. Bu gün Azərbaycan dünyada humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Ölkəmizin əsrlərboyu bir çox fərqli sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşməsi, Asiya ilə Avropa arasında körpü rolunu oynaması burada mədəniyyətlərin müxtəlifliyinin yaranmasına səbəb olub.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Sosial Xidmətlər Agentliyində görüş keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyində şəhid ailələri, Qarabağ müharibəsi, 20 Yanvar, Çernobıl əlilləri, qazilərlə bağlı QHT-lərin rəhbərləri ilə görüş keçirilib.



Görüşdə "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri", "Qarabağ Qaziləri", "20 Yanvar" Cəmiyyəti, "Azərbaycan Vətən Müharibəsi Veteranları" "Şəhid ailələrinə maddi və mənəvi dəstək", "Vətənpərvərliyin Təbliğinə Dəstək" və s. İctimai Birliklərin rəhbərləri - ümumilikdə 12 QHT nümayəndəsi iştirak edib.

Agentliyin sədri Vüqar Behbudov sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi sahəsində aparılan işləri qeyd edib. O, şəhid ailələri və müharibə əlillərinin mənzillə, müharibə əlillərinin avtomobillə təminatı proqramı barədə məlumat verib. Postmüharibə dövründə şəhid ailələri və qazilərlə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək tədbirlərini diqqətə çatdırıb.

Qurum tərəfindən aparılan işlərdə, habelə ictimai iştirakçılığın və ictimai nəzarətin təmin olunmasında vətəndaş cəmiyyətləri ilə sıx əməkdaşlıq, birgə layihələrin icrası təcrübəsinin olduğu vurğulanıb.

Görüşdə şəhid ailələri və qazilərlə, əlillərlə bağlı icra olunan sosial müdafiə proqramlarına dair fikir mübadilələri aparılıb. İctimai birliklərin rəhbərlərinin rəy və təklifləri dinlənilib, gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

# "Anatolian Phoenix-2021" təlimi sona çatıb

Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada keçirilən "Anatolian Phoenix-2021" beynəlxalq axtarış-xilasetmə təlimi sona çatıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Qeyd edək ki, Azərbaycan Ordusu təlimdə Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları ilə təmsil olunurdu.





# Ümumdünya Ətraf Mühit Günü münasibətilə təmizlik aksiyası təşkil edilib

Çimərlik mövsümünün açılışı ilə əlaqədar iyunun 5-də IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Gənclər Fondu və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası təşkil edilib.











IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş təmizlik aksiyası Şüvəlan çimərliyi ərazisində təşkil edilib. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin iştirakı ilə baş tutan sayca 16-cı aksiyadır.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları topladıqları tullantıları çeşidləyərək çimərliklərdə ən çox müşahidə olunan zibilləri müəyyən ediblər. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika da cəlb olunub. Daha sonra bütün tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə baxımsız sahilyanı ərazilərin tullantılardan təmizlənməsi və abadlaşdırılması, insanların rahat istirahət etməsi üçün lazımi şəraitin yaradılması, ictimai sağlamlıq və gigiyenanın yaxşılaşdırılması, eləcə də ekoloji və sosial məsuliyyətin təşviq edilməsi məqsədilə paytaxtımızda ictimai çimərliklər yaradılıb. IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbə çimərliklərinin ərazisində olmaqla ümumilikdə 6 ictimai çimərlik əhalinin istifadəsinə verilib. Sözügedən çimərliklərdə insanların rahat, təmiz və təhlükəsiz məkanda tamamilə ödənişsiz istirahət edə bilməsi üçün oturacaqlar və sanitar qovşaq quraşdırılıb, futbol və voleybol meydançaları salınıb, zibil qutuları yerləşdirilib, Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqəsi yaradılıb, tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinaları, sanitar qovşaqlar, söhbətgahlar və sair quraşdırılıb.

Bu il Ümumdünya Ətraf Mühit Gününün "Ekosistemin bərpası" mövzusuna həsr edilməsini nəzərə alaraq, IDEA İctimai Birliyi hər kəsi indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə çağırıb: "Biz zamanı geri qaytara bilmərik, amma biz ağaclar əkə bilərik, şəhərlərimizi yaşıllaşdıra bilərik, meşələrimizi bərpa edə bilərik, sağlam qidalana bilərik, sahillərimizi təmizləyə bilərik. Biz təbiətlə harmoniyada yaşaya bilən nəsilik. Gəlin gələcək üçün narahat yox, aktiv olaq! Gəlin təbiətimiz üçün çəkingən yox, cəsur olaq! Gəlin Planetimiz naminə birləşək və təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşaq!"

Dünya olduğu kimi

# 2500 illik imperatorluq

Şərqi Asiyada yerləşən və ada ölkəsi olan Yaponiyanın keçmiş adı Nippon-koku və ya Nihon-koku olub. Yaponiya "Gündoğan ölkə" kimi də adlandırılır. Bu ölkə haqqında məlumat verən ilk mənbə I əsrə aid olan Çin tarixi mətnləridir. Belə ki, Yaponiyanın adı ilk dəfə Çin tarixi haqqında olan "Han kitabı"nda qeyd edilib.

Aparılmış arxeoloji qazıntı işləri insanların Yaponiyada üst Paleolit dövründə məskunlaşdığını göstərir. İlk sakinlərin isə Şərqi Asiya və Cənubi Pasifik adalarından gələnlər olduğu qeyd edilir.



Kofun dövründə (III-VI əsr) Yaponiyanın indiki Nara prefekturasının ərazisində ilk yapon dövləti Yamato yaranıb. Yamato dövləti yapon imperator sülaləsinin qurulmasına töhfə verib. Yapon imperator ailəsi və ya Yamato sülaləsi Yaponiya imperatorlarını əhatə edən sülalədir.

Yapon monarxiyası dünyada mövcud olan ən qədim monarxiyadır. Yapon tarixinə görə imperator ailəsi 2500 illik tarixə sahibdir. Əfsanəvi imperator Cimmudan indiki imperator Naruhitoya qədər ümumilikdə 126 hökmdar taxtda olub. Cimmu Yaponiyanın ilk imperatorudur. Onun hakimiyyətə başladığı il e.ə. 660-cı il kimi qəbul edilir. Onun hakimiyyətə başladığı 11 fevral günü Yaponiyada Milli Bünövrə Günü kimi qeyd olunur.

Əsl adı Mutsuhito olan imperator Meiji (1867-1912) Yaponiyanın modernləşməsində mühüm rol oynayıb. Yaponiyanın ən çox taxtda olan imperatoru isə Hirohito olub. O, Yaponiyanı 63 il (1926-1989-cu illər) idarə edən 124-cü imperatordur.

1921-ci ildə məzun olduğu zaman 6 aylıq Avropa səyahətinə çıxan Hirohito həm də xaricə gedən ilk yapon şahzadəsi olub. 25 dekabr 1926-cı ildə atası Taişo vəfat etdikdə isə Yaponiya imperatoru elan edilib. Böyük Yaponiya İmperiyası Konstitusiyası (Dai Nihon Teikoku Kenpö) imperatora böyük səlahiyyətlər verir. O, yaponların II Dünya müharibəsindəki məğlubiyyətindən sonra - 1945-ci il avqustun 15-də radio vasitəsilə Yaponiyanın Potsdam Bəyannaməsini qəbul etdiyini bildirdi. Bu çıxışı ilə o yapon imperatorlarının ənənəvi danışmamaq adətini pozdu.

Yapon monarxiyasının varislik qaydaları və imperator ailəsinə aid olma meyarları 16 yanvar 1947-ci il tarixli İmperator Sarayı Qanunu ilə tənzimlənir. Yaponiya Konstitusiyasına görə, imperator dövlətin və xalqın birliyinin simvoludur. Yaponiya İmperator Ailəsinin inzibati və iqtisadi məsələlərinə dair qərarlar İmperator Sarayı Şurası və Nazirlər Şurası tərəfindən qəbul edilir. Mövcud Konstitusiyaya əsasən, imperator ailəsinin mülkiyyəti dövlətə məxsusdur və bu səbəbdən üzvlərin əmlakın köçürülməsi və əldə edilməsi kimi məsələlərdə məhdud hüquqları var. İmperator ailəsinin büdcəsi parlament tərəfindən təsdiqlənir. 1889-1947-ci illərdə qüvvədə olan Konstitusiyaya görə, bütün Yaponiya ilə əlaqəli ümumi hüquq normaları imperator ailəsinə şamil edilmirdi və parlamentin ailənin işlərinə qarışmaq səlahiyyəti yox idi. İdarə işlərini imperator özü həll edirdi və ona imperator sarayının naziri kömək edirdi.

İndiki yapon imperator sarayı VI əsrdə inşa edilib. İlk daimi imperatorluq paytaxtı 710-cu ildə indiki Nara şəhəri olan Heijö-Kyödə salınıb.

## Yapon möcüzəsi

1945-ci il avqustun 6-da Yaponiyanın Hiroşima, avqustun 9-da Naqasaki şəhərlərinə ABŞ tərəfindən atom bombaları atıldı. Birinci bombanı Amerika Prezidentinin fərmanı ilə Hiroşima şəhərinə "B-29" təyyarəsinin pilotu Paul Tibets Birləşmiş Ştatlara məxsus "Balaca oğlan" adlı təyyarədən atmışdı. Beş tonluq atom bombasının atılmasından yaranan partlayış nəticəsində Hiroşima şəhərinin 60 faizi tamamilə məhv olmuş, partlayış, yanğınlar və güclü şüa xəstəliyi nəticəsində 200 mindən çox insan həlak olmuşdu.



II Dünya müharibəsində ağır məğlubiyyətə uğramasına baxmayaraq, qısa müddətdə Yaponiyanın sürətli inkişafı və dünyanın aparıcı iqtisadi güclərindən birinə çevrilməsi "Yapon möcüzəsi" kimi qəbul edildi.

"Yapon möcüzəsi"nin ən əhəmiyyətli simalarından biri 1960-cı illərdə baş nazir vəzifəsini tutan Hayato İkeda olub. O, Yaponiyanın müvəffəqiyyətinin təməli olan iqtisadi böyümə proqramı hazırlayıb. İkeda cəmi 10 il müddətinə milli gəliri iki dəfə artırmağa nail olub.

1980-ci illərin sonunda Yaponiyanın iqtisadi inkişafı o qədər göz qamaşdırdı ki, "Yaponiya bir nömrəli" şüarı altında onun dünyanın ən böyük iqtisadi gücünə çevrilmə planları hazırlanmağa başlanıldı. Buna baxmayaraq, 1990-cı illərin əvvəllərindən etibarən Yaponiya iqtisadiyyatında tənəzzül baş verdi.

Hazırda böyük iqtisadi inkişaf ilə yüksək rifah səviyyəsinə çatmış, texnika və elmdə çox irəli getmiş Yaponiya az qala bütün dünya bazarlarını ələ keçirmiş bir dövlətdir. Milli gəliri 5,38 trilyon dollar olan bu ada dövləti hazırda dünyanın 3-cü böyük milli iqtisadiyyatına sahibdir. Yaponiya həm də dünyanın ən böyük 5-ci ixracatçısı və idxalçısıdır.

Yaponiyanın böyük iqtisadi təcrübəsi var. Ölkədə texnologiya sahəsində tanınmış bir çox şirkət fəaliyyət göstərir. Yaponiya həm də elmi tədqiqatlar sahəsində lider ölkələrdən biridir. Bu ölkədə 700 minə yaxın tədqiqatçı fəaliyyət göstərir. Tədqiqat işlərinə illik təxminən 130 milyard ABŞ dolları ayrılır ki, bu göstəriciyə görə də o, dünyada üçüncü yerdədir. Yaponiyanın sanballı texnoloji töhfələri elektronika, maşınqayırma, mexaniki avadanlıqlar, inşaat mühəndisliyi, sənaye robototexnikası, optika, kimyəvi maddələr, yarımkeçiricilər və metal sahələrinə aid edilir. Yaponiya robot istehsalında və istifadəsində aparıcı ölkələrdən biridir. O, 2013-cü ildə bütün dünyada istehsal olunmuş sənaye robotlarının 20 faizini istehsal edib.

## Samuray qanunları

VII əsrin əvvəllərində yapon ordusunda hərbçi aristokratlar, elitar döyüşçülər meydana çıxdı ki, onlara samuray deyirdilər. Samuray sözünün mənası müdafiə etmək, xidmət (hərbi) göstərməkdir. Samuraylar yapon müharibə mədəniyyətində mühüm yer tutur. Samuraylar "buşido" fəlsəfəsinə əsaslanırdılar. Buşido fəlsəfəsində qorxunun yeri yoxdur. Samuray ölüm qorxusunu aşan bir insandır.



Samuray qanunlarına görə, döyüşçülərin sırasına yalnız hərbi qəhrəmanlığa can atan, cəsur, comərd və ədalətli insanlar daxil edilə bilərdilər. Onlar da əsasən zadəganlardan, kiçik mülkədarlardan, imkanlı şəxslərdən və onların ailə, tayfa üzvlərindən ibarət olurdular. Amma bununla belə onların sırasında sadə kəndlilərə, sənətkarlara da rast gəlmək mümkün idi. Qayda isə hamı üçün bərabər idi: hər bir kəs mütləq öz cəsurluğunu sübuta yetirməliydi.

Bu gün dünyada məşhur olan "kamikadze" ifadəsi də yaponlara məxsusdur. Bu, İkinci Dünya müharibəsinin son dövrlərində Sakit okeandakı hərbi əməliyyatlarda ABŞ donanmasına qarşı istifadə olunan yapon intiharçı pilotlarına verilən ad olub. İlkin olaraq isə "kamikadze", yəni "ilahi külək" 1274-cü və 1281-ci illərdə monqol xanı Kubilayın Yaponiyanı ələ keçirmək üçün göndərdiyi donanmanı məhv edən tayfuna verilən ad olub.

## AİKİDO-nun vətəni



AİKİDO döyüş sənəti XX əsrin ortalarında dahi ustad Morihei Ueşiba (1883-1969) tərəfindən Yaponiyada yaradılıb. O, məşğul olduğu müxtəlif yapon döyüş sənətlərindən qaynaqlanaraq, yaratdığı AİKİDO təlimini insanın fiziki və ruhi inkişafına və təbiət qanunlarının dərk edilməsinə yönəldir. AİKİDO-nun fəlsəfəsi kiminsə üzərində qələbə çalmaq deyil, insanın öz üzərində qələbəsidir. AİKİDO-da yarışlar keçirilmir və ənənəvi döyüş sənəti kimi təqdim olunur və buna görə də digər döyüş növlərindən fərqlənir.

AİKİDO-da heç bir rəqabət yoxdur. Şüurun və bədənin inkişafına yönələn daimi məşqlər nəticəsində ustalığa çatmaq mümkündür. Ustalıq döyüş meydanında və ya tatamidə sübut olunur.

## 7000-ə yaxın adadan ibarət olan ölkə

Yaponiya Şərqi Asiyanın Sakit okean sahili boyunca uzanan 6852 adadan ibarətdir. Bu adalar vulkanik zonada yerləşirlər. Yaponiya zəlzələ və sunamilərə meyilli ölkədir və inkişaf etmiş ölkələr arasında ən böyük təbii fəlakət riskinə malik dövlətdir. Yaponiyanın ən böyük dörd adası - Honşu, Hokkaydo, Kyuşu və Şiko-




ku ölkə ərazisinin təxminən 97 faizini əhatə edir.

Ümumilikdə bütün adalar birlikdə Yapon arxipelaqını əmələ gətirir. Ölkədə 108 fəaliyyətdə olan vulkan var. XX əsr boyunca Hokkaydodakı Şova-şinzan və Beyonesu qayalıqlarındakı Myocin-şo kimi bir neçə yeni vulkan püskürüb. Tez-tez sunami ilə nəticələnən dağıdıcı zəlzələlər hər əsrdə bir neçə dəfə baş verib. 1923-cü ildə Böyük Kanto zəlzələsi 140 min nəfərin ölümünə səbəb olub. Digər baş vermiş dağıdıcı zəlzələlər Böyük Hanşin (1995) və Tohoku (2011) zəlzələləridir. Tohoku zəlzələsi 11 mart 2011-ci ildə baş vermiş və dəhşətli sunamiyə səbəb olmuşdur.

## İkinci Dünya müharibəsində 2,1 milyon yapon həlak olub



Tarixdə indiyədək ən çox yapon İkinci Dünya müharibəsində həlak olub. Bu müharibədə həlak olan 2,1 milyon nəfərin adı Yasukuni məbədində ilahiləşdirilib. Müharibədən sonra ölüm hökmünə məhkum olunan 1068 nəfər, o cümlədən bəşəriyyət əleyhinə cinayətdə ittiham olunan keçmiş baş nazir və 13 generalın adı da burda müqəddəsləşdirilib. Məbəddə həmçinin Tokio prosesində ittiham olunan yapon hərbçilərə bəraət verilməsini tələb edən yeganə hakim, hindistanlı Radxabinod Pala da heykəl qoyulub.

Yasukuni məbədində tikildiyi dövrdən İkinci Dünya müharibəsinədək baş verən 11 müharibədə həlak olan 2,5 milyon döyüşçünün adı yazılıb. Məbəddə həlak olan döyüşçülərin ruhuna ibadət edilməsi imperator uğrunda canını verən döyüşçülərin allahlara bərabər tutulması anlamına gəlir.

Yasukuni 1869-cu ildə imperator Meydzinin əmri ilə Tokioda vətəndaş müharibəsində həlak olanların xatirəsinə tikilən sintoist məbəddir. Digər sintoist məbədlərdən əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, burada Yaponiya və imperator uğrunda həlak olan döyüşçülərin ruhuna ibadət edilir. Bu məbədin ali ilahəsi Yaponiya imperatoru hesab olunur.

## Yaponların qızıl məbədi

Yaponiyada qızıl məbədi kimi tanınan Kinkaku-ci bu ölkənin nadir incilərindən biridir. Kiotoda yerləşən qədim məbədin üzəri təmiz qızıldan örtülüb.

Məlumata görə, 1394-cü ildə Yaponiyanın III imperatoru Sequn Yoşimitsu taxttacdan əl çəkdikdən sonra ömrünü sakit bir guşədə başa vurmağı qərara alıb və Qızıl məbədin tikintisinə başlayıb. Yoşimitsunun vəfatından sonra imperator Kinkaki bu məbədin tikintisini başa çatdırıb. Məbədin hər mərtəbəsinin öz adı var və özünəməxsus bəzədilib. Binanın ikinci və üçüncü mərtəbələri üzərinə yapon lakı çəkilmiş nazik qızıl təbəqə ilə örtülüb. Bir neçə dəfə tamam yanmış bina 1955-də yenidən inşa edilib.

Yaponiyanın digər maraqlı abidəsi "Bülbül döşəmə"dir. Yapon qəsrlərinə və ibadətxanalarına kənar şəxslərin xəlvəti daxil olmamaları və onların bu işlərini çətinləşdirmək üçün tez-tez "bülbül döşəmə"



quraşdırıblar. Döşəmənin taxtaları xüsusi formada bir-birinə alt-üst - V formalı dəmirlərlə bərkidilir, bunun nəticəsində döşəmə təzyiq altında olanda quşların civilti səsini çıxarmağa başlayır. Ən maraqlısı da odur ki, ayaq barmaqlarının ucunda gəzmək istəyəndə təzyiq çoxalır, bununla səs daha güclü çıxır.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***



Sağlıq olsun

# "Gündoğan"da ruha şəfa

**Qədim yapon təbabəti ümumilikdə Çin təbabətinin təsiri altında olsa da, qaynağını mifologiya və yerli dinlərdən olan şintoizmdən alıb. "Tanrıların yolu" mənasına gələn şintoizmdə təbiətdəki hər şeyin ruhunun olduğuna inam var. Bu əsaslar üzərində qurulan Şiatsu və Reiki kimi populyar üsullar yapon təbabətinin təməlini təşkil edir.**



Qədim Yaponiyada tibb daha çox sehrə bənzəyirdi, folkloru, əfsanələri, mifləri və mərasimləri mənimsəmiş formada idi. Antik Yaponiyanın tarixinə aid ən qədim yazılı mənbələrdən olan "Nihon seki" kitabında (VII əsr) iki tanrının - Suku-na-hikona-no mikoto və Oho-ana-muchi-no mikotonun qüvvələrini necə birləşdirdikləri və insanlar üçün müxtəlif xəstəliklərin müalicə üsullarını təyin etdikləri göstərilir. Həm də bu tanrıların müxtəlif fəlakətlərdən qoruyan ayinlər və sehr yaratmağı bacardıqları qeyd olunur.

Qədim yaponlar əksər xəstəliklərin əsas səbəbini pis ruhların və ya cinlərin hərəkətində axtarırdılar. Buna görə də müalicələrinin ən çox yayılmış üsulu cinləri qovmaq üçün müxtəlif ayinlər həyata keçirmək idi. Xəstəliklərdən qurtulmaq üçün tanrıların, o cümlədən heyvanların fiqurlarından fəal şəkildə istifadə ediblər.

Bununla yanaşı, yaponlarda çox qədimlərdən bitkilərlə müalicə üsulları da geniş yayılmışdı. Qədim yapon yazılı mənbəsi olan "Kojiki"də müalicəvi xüsusiyyətlərə malik 40-dan çox dərman bitkisi, heyvan orqanları və minerallar təsvir edilib. Hörümçək toru qanaxmanı dayandırmaq üçün istifadə olunar, horseradiş vasabi bitkisi antiseptik, yandırılmış mollusks (yumşaqbədənlilər) qabıqlarının külləri yanıqlar, bir sıra bitkilərin tozcuqları irinli yaralar, bəzi bitkilərin suyu yaralar və aşınmalar üçün, mineral bulaq sularından qızdırma zamanı istifadə olunub.

## Sehrli mərasimlər və Buddist təbabəti

"Nihon seki" kitabına görə, V əsrdə Yaponiyaya həm Çinin Şərqi Jin əyalətindən, həm də Koreyanın Silla və Goguryeo şəhərlərindən həkimlər gəlib. VI əsrdə isə Baekje və Silladan, eyni zamanda bir neçə Çin vilayətindən şəfaçılar Yaponiyaya gəliblər. İlk olaraq 594-cü ildə buddist Şitenno-ji məbədində adi insanların müalicəsi üçün xəstəxana tipli bir yer də yaradılıb.

Çin və Koreyadan sonra yapon tarixinin Asuka dövründə ((538-710) buddist tibbi Yaponiyada geniş yayılıb. O vaxtdan sonra tibb şərti olaraq üç komponentə bölünüb: sehrli mərasimlər və dərman müalicəsi olan xalq üsulları, çinli həkimlərin üsulları və Buddist təbabəti.

Yaponiyanın Nara dövründə (710-794) tələbələr Çin tibb qanunlarını ətraflı öyrənməyə başlayıblar. Bundan sonrakı Heyan dövründə xəstəliklər və onların müalicələri haqqında ilk yapon yazıları ortaya çıxıb. Bu barədə ən birinci Ueyk Hiroyonun "Tibbi Kanonun Böyük Əsası", ardından İzumo Hirosada və Abe Manao tərəfindən "Daido dövrünün terapevtik metodlarının təsnifatı" kitabları və daha sonra 100 kitab yazılıb. Həmin vaxtdan tibb tədqiqat, müalicə metodları və xəstəliyin qarşısının alınmasını əhatə edən bir elm olaraq qəbul edilməyə başlanıb.

XIX əsrin ikinci yarısından etibarən Yaponiyada təməllərə söykənərək tibbin akademik elmi metodlarının öyrənilməsi üçün qərar qəbul olunub. 1868-1914-cü illər arasında təxminən 1200 yapon tələbəsi ən yaxşı professorlardan Avropa təbabətinin qabaqcıl metodlarını öyrənmək üçün Almaniyanın müxtəlif şəhərlərinə göndərilib.

## Təbabətin inkişafına töhfə

Bir çox yapon tədqiqatçı və həkimləri tibbin inkişafına töhfə veriblər. Yapon mikrobiologiyasının qurucularından olan Kitasato Sibasaburo 1890-cı ildə tetanusa səbəb olan bir bakteriyanı (Clostridium tetani) təcrid edib və E.Berinqlə birlikdə tetanus və difteriya toksinlərinin antigen xüsusiyyətlərini ortaya qoyub.

Seisu Hanaoka (1760-1835) ümumi anesteziyanı icad edən ilk həkimlərdən sayılır. Hanaoka tərəfindən təklif edilən metod unikaldır, çünki yalnız bitki mənşəli tibbi biliklərə əsaslanaraq hazırlanıb. Onun "Tsusensan" adı verdiyi dərman müxtəlif otların ekstraktlarının qarışığına əsaslanıb. Bu dərmanı qəbul edən şəxs yuxuya gedər və ağrılara reaksiya göstərməzdi.

1804-cü ilin (və ya 1805) oktyabr ayında Hanaoka anesteziyadan istifadə edərək ilk əməliyyatını edib. Həkimin xəstəsi döş xərçəngi olan 60 yaşlı Aya Kan idi. Əməliyyat müvəffəqiyyətlə keçib, lakin şiş çox gec çıxarıldığı üçün xəstə daha sonra metastazdan vəfat edib.

Tibbi üsul

## Bəşəri yaşam enerjisi

**XX əsrin əvvəllərində Yaponiyada enerji yüklənməsi əsasında ruhi şəfa verməyə qadir olduğuna inanılan Reiki adlı sistem yaranıb. Reiki hər yerdə var olan "ruhi yaşam enerjisi" anlamına gəlir. Qərb dünyasına "bəşəri yaşam enerjisi" olaraq tərcümə edilən Reiki asanlıqla tətbiq edilə bilən, zərərsiz tibbi üsul olaraq qəbul edilib.**

Qaynağının Tibet olduğu düşünülən Reiki yapon buddisti, yapon ali silkinin nümayəndəsi, samuray Mikao Usui tərəfindən yaradılıb. Onun ölümündən sonra qoyulan abidədə yazılanlara görə, Reikinin təməlini təşkil edən enerjinin qaynağı onun Kurama dağında 21 günlük zikrə çəkildiyi zaman meydana gəlmişdir. Mikao Usui 1922-ci ildə bu enerji ilə işləyən şəfa texnikasını tətbiq etmək üçün Tokioda bir klinika açmışdır.

Usuidən sonra onun ən qabaqcıl tələbələrindən olan fizik, professor Çjuro Hayaşi bu sistemi Havaya aparmış və bir tələbəsinə bu sistemin müəllimliyi hüququnu vermişdir. Həmin tələbənin hesabına Reiki daha sonra Avropaya gəlib və 1970-ci illərdə daha 20 nəfər Reiki ustası, müəllimi yetişdirmişdir. Avropada "Reiki"nin daha geniş yayılması və tətbiqi məhz həmin 20 tələbənin adı ilə bağlıdır.

Reiki fiziki, ruhi və zehni narahatçılıqların müalicəsi zamanı tətbiq olunur. İnanca görə, Reiki bədəndə meydana gələn enerji mübadiləsi problemlərini və neqativ enerji bloklarını yox etmək, yetərsiz və ya əskik olan enerjini tənzimləmək



üçün şüur dəyişkənliyi yolu ilə insanda ruhi-fiziki problemlərin həllinə yol açır.

Reiki enerjinin əllə ötürülməsi üsulu ilə həyata keçirilir. Enerjinin ötürülməsi zamanı əllərin soyuması, isinməsi və ya qıcıqlanması kimi hallar müşahidə edilə bilər. Bu sistemin özəlliklərindən biri də budur ki, onun müalicəvi təsirindən yararlanmaq üçün ona inanmaq şərt deyildir.

Xalq təbabəti

## Barmaqların möcüzəsi



"Şiatsu" barmaq basmaq deməkdir. Enerji masajı olduğu üçün meditasiya növüdür. Yaponiyada XX əsrin əvvəllərində o zamana qədər tətbiq edilən və müalicə sahəsində qəbul və tətbiq olunmağa başlanan əllə müalicə üsullarının sintezi olaraq yaranıb və tibdə tətbiqinə başlanıb. Qısa müddətdə Çin mənşəli masajlardan təsirlənərək sinir sistemi və daxili orqanlara təsir edən müalicə üsuluna çevrilib.

Bu masaj bədənin özünün müalicə imkanlarını aktivləşdirir, pozulmuş tarazlığı bərpa etməyə və xəstəliklərin mümkün səbəblərini aradan qaldırmağa kömək edir. Enerji təbabətindəki anlayışa görə, xəstəliyin ilk simptomları bədəndəki həyat enerjisi azaldıqda və ya artdıqda ortaya çıxır. Bu balanssızlıq bədənin fiziki və kimyəvi keyfiyyətlərini əks etdirir, nəticədə əzələ gərginliyi, turşu yığılması və hormonal balans pozulur. Bir çox Şərq müalicə üsulları kimi, "Şiatsu" da enerji paylanmasında natarazlığı aradan qaldırır.

Bu tibbi üsul zamanı həyat enerjisi xətləri müxtəlif yollarla basılır, əzalar dartılır, oynaqlar işlədilir.

Şəfalı bitkilər

## Kampo

Kampo dərmanları Yaponiyada müalicəvi otlar və təbii maddələr əsasında hazırlanır. Hazırlanmasında darçın və portağal qabıqları və digər bitki tərkiblərindən və qarışıqlarından istifadə olunur. Kamponun xəstəliyə yanaşması bədənin müdafiə mexanizmlərini və orijinal şəfa gücünü uzlaşdıraraq onu müalicə etməkdir. Kampo xəstəliklər zamanı bədənin bərpa qabiliyyətini artıraraq yan təsirlərin öhdəsindən gəlməyə kömək edir.



Yaponiyadakı bütün kampo dərmanları yapon əczaçılıq şirkətləri tərəfindən istehsal olunur. Kampo resepturasının istifadəsinə xərçəng hüceyrələrinin yayılmasının, xərçəng əleyhinə dərmanların yan təsirlərinin qarşısının alınması daxildir.

Yaponiyada səhiyyə sistemində kampo dərmanlarının geniş yayılması müasir və ənənəvi təbabətin inteqrasiyasının ecazkar nümunəsidir.

Yaşam

## "Ölməyənlər diyarı"



Hesablamalara görə ən çox yaşlı insanların olduğu ölkə Yaponiyadır. Bu ölkədə hər dörd nəfərdən biri 65 və daha yuxarı yaşdadır. Orta ömür isə 83 ildir. "Ölməyənlər diyarı" kimi tanınan Okinava adası uzunömürlülüyə dair elmi araşdırmaların mərkəzinə çevrilib. Statistikaya əsasən, Yaponiyanın cənub adalarında 100 yaşdan yuxarı 400-dən çox insan yaşayır. 2019-cu ilə qədər isə Hokkaydo adasının sakini Masazo Nonaka dünyanın ən yaşlı adamı olaraq Ginnessin Rekordlar Kitabına düşmüşdür. 113 yaşında vəfat edən Nonakanın yaxınları söyləyib ki, onun uzunömürlülüyünün sirri stressiz həyat və yaxın ailə bağları olub.

Sağlam qidalanma

## Yemək mədəniyyəti

**Yapon sağlamlığının və uzunömürlülüyünün sirri həm də dadlı və sağlam qidalar, enerji və yüksək əhvali-ruhiyyə verən mətbəxdir. Başqa yerlərlə müqayisədə tərkibində ədviyyatların demək olar ki, olmadığı bu mətbəx düyü, soya, dəniz məhsulları, yosun və tərəvəzlərə əsaslanır. Yapon mətbəxi sadə, gözəl görünüşlü xörəklərlə məşhurdur. Bu xörəklərdə inqrediyentlərin dadları bir-birini itirmir.**



Mütəxəssislər hesab edirlər ki, yapon uzunömürlülüyünün səbəblərindən biri də onların ənənəvi qida rasionudur. Yapon mətbəxində mövsümlük prinsipi mövcuddur ki, bu da cari ilin fəsillərini əks etdirən qida inqrediyentlərinin seçilməsinə əsaslanır. "Şun" adlanan bu konsepsiyaya əsasən balıq, tərəvəz və meyvələrin tərkibində qidalandırıcı maddələrin miqdarı ən yuxarı səviyyədə olur. Yaponiyada demək olar ki, bütün xörəklərin əsas hissəsini düyü təşkil edir. Hətta əfsanəyə görə qamış düyü Yaponiyaya min illər əvvəl ilahi İnari-sama tərəfindən göndərilib. Eyni zamanda bu ölkədə tarixən balıq istisna olmaqla digər ət məhsullarına maraq az olub. Hazırda da balıqdan başqa digər ət məhsulları populyar deyil.

Yaponiyada təzə məhsulla qidalanmaq vacib sayılır. Ona görə yapon kulinariyasında konservləşdirilmiş və dondurulmuş qida anlayışı demək olar ki, yoxdur.

Yaponiyanın dünyada ən məşhur olan xörəyi suşidir. Suşinin Nigiri, Qunkan, Norimak, Temaki, Oşi, Çiraşi kimi növləri var.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Qardaş Türkiyənin "Hədiyyə karvanı"nın növbəti ünvanı Tərtər oldu






Türkiyənin Uşaq Oyunları və İdman Klubları Federasiyasının başqanı Mehmet Mutlunun və YAŞAT Fondunun Vətən müharibəsi şəhidlərinin övladları üçün nəzərdə tutulan "Hədiyyə karvanı"nın növbəti ünvanı Tərtər rayonu olmuşdur.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Türkiyədən gələn qonaqlar ilə görüş zamanı onlara bu nəcib layihənin icrası üçün dərin minnətdarlığını ifadə etdi, bunun bizim üçün çox böyük mənəvi dəyəri olduğunu, iki millət arasında qardaşlıq münasibətlərinin doğma Qarabağımızın azadlığı uğrunda apardığımız haqq savaşında düşmənlərimizin süqutunda müstəsna rol oynadığını və bu birliyin bütün dünyaya əbədi dərs olduğunu bildirdi.

Qeyd olundu ki, 44 gün davam edən Vətən müharibəsi ərzində düşmən Tərtərə 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atıb: "Ancaq tərtərlilər bir gün də öz doğma yurdlarını və ev-eşiklərini tərk etməyib, evləri dağılsa da, şəhidlər verilsə də, ön cəbhədə olduğu kimi arxa cəbhədə də qəhrəmanlıq, şücaət göstəriblər".

Layihənin icraçıları Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət etmiş, onların övladlarına müəyyən anlama və həlletmə bacarıqları tələb edən oyuncaq hədiyyələr, idman geyim dəstləri, qoruyucu maskalar, jurnallar bağışlamışlar.

"Hədiyyə karvanı" layihəsi 13 iyun tarixədək davam edəcək. Bu çərçivədə ölkəmizin müxtəlif şəhər və rayonlarına səfərlər ediləcək və həmin rayonlardan olan şəhidlərimizin ailələri ziyarət olunmaqla onların övladlarına hədiyyələr paylanılacaq.

***L.QULİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# İyunun 10-dan etibarən Rusiya və Türkiyə vətəndaşları hava yolu ilə Azərbaycana müəyyən edilmiş şərtlərlə səfər edə biləcəklər

Nazirlər Kabineti yanında Operativ Qərargah epidemioloji vəziyyəti sabit olan bir sıra ölkələrin vətəndaşlarının ölkəmizin ərazisinə səfər edə bilməsi üçün xüsusi icazə tələbinin mərhələli şəkildə ləğv olunması barədə qərar qəbul edib. Operativ Qərargahdan bununla bağlı AZƏRTAC-a daxil olan məlumatda deyilir:

"Məlum olduğu kimi, koronavirus (COVID-19) pandemiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə görülmüş tədbirlərdən biri xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ərazisinə girişinin yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi icazəsi əsasında verilməsidir.

Son bir ildən artıq müddət ərzində həyata keçirilmiş genişmiqyaslı tədbirlər, o cümlədən 2021-ci ilin yanvar ayından etibarən başlanmış uğurlu vaksinasiya proqramı nəticəsində Azərbaycanda epidemioloji vəziyyət müsbətə doğru inkişaf etmiş, xüsusi karantin rejimi çərçivəsində tətbiq olunmuş bir sıra məhdudiyyətlər aradan qaldırılmışdır.

Eyni zamanda, dünyanın bir sıra ölkələrində epidemioloji vəziyyət sabitləşir və ardıcıl vaksinasiya tədbirləri nəticəsində həmin ölkələrdə yoluxma sayları nəzarətdə saxlanılır.

Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah Azərbaycan kimi epidemioloji vəziyyəti sabit olan bir sıra ölkələrin vətəndaşlarının ölkəmizin ərazisinə səfər edə bilməsi üçün xüsusi icazə tələbinin mərhələli şəkildə ləğv olunması barədə qərar qəbul edib.

Belə ki, ilkin mərhələdə 10 iyun tarixindən etibarən epidemioloji vəziyyətdə müsbət dinamikanın müşahidə edildiyini nəzərə alaraq Rusiya Federasiyası və Türkiyə Respublikasının vətəndaşları hava yolu ilə Azərbaycan ərazisinə aşağıda müəyyən edilmiş şərtlərlə səfər edə biləcəklər:

- Yaşı 18-dən yuxarı olan sərnişinlərin tam vaksinasiya olunması və ya COVID-19 xəstəliyindən sağalması barədə müvafiq ölkənin verdiyi rəsmi sənədin (COVID pasport) və uçuşdan əvvəl 72 saat ərzində COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin təqdim olunması;
- 1 yaşdan 18 yaşadək olan sərnişinlərin uçuşdan əvvəl 72 saat ərzində COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin təqdim olunması.

Eyni zamanda, 10 iyundan başlayaraq Azərbaycana daxil olmaq üçün bütün 1 yaşdan yuxarı olan sərnişinlərin COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin müddəti uçuşdan əvvəl 48 saatdan 72 saatadək artırılır. 1 yaşdan aşağı olan uşaqlar üçün COVID pasport və PCR test nəticələrinə dair sənədlər tələb olunmur.

Azərbaycan Respublikasına birbaşa uçuşlar icra edən bütün aviadaşıyıcılar yalnız müvafiq tələblərə cavab verən sərnişinləri qeydiyyata almalıdırlar. Azərbaycan ərazisinə daxil olarkən sərhəd nəzarətindən keçdikləri zaman tələblərə cavab verməyən sərnişinlər ölkə ərazisinə buraxılmır və aviadaşıyıcının hesabına həmin təyyarə ilə geri qaytarılır.

Yaxın gələcəkdə epidemioloji vəziyyət və əhalinin vaksinasiya səviyyəsi əsas götürülərək digər ölkələrin vətəndaşlarının da hava yolu ilə Azərbaycan Respublikasına girişinin bərpa edilməsi məsələsi baxılmaqdadır".

# Milli Məclisin sabiq deputatı barəsində cinayət işi məhkəməyə göndərilib

2005-2019-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinin III, IV və V çağırışları üzrə deputatı olmuş Cəbrayılov Rəfael Kamil oğlunun qanunsuz əməlləri ilə əlaqədar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, istintaqla Rəfael Cəbrayılovun Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olarkən ayrı-ayrı şəxslərə torpaq sahəsinə mülkiyyət hüquqlarının dövlət qeydiyyatından keçirilməsi barədə çıxarışın alınmasında kömək göstərəcəyi, eləcə də digər məqsədlərlə yalan vədlər verərək cəmi 11 nəfər şəxsin ümumilikdə 2 milyon 571 min manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsinə, həmin hərəkətləri ilə də deputatının işgüzar nüfuzunun qorunub-saxlanılması ilə əlaqədar dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyənləşdirilib.

İş üzrə toplanmış sübutlar əsasında Rəfael Cəbrayılova Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq- külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə - ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilərək məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Azərbaycanlı alimin elmi kitabı Gürcüstanda rus və gürcü dillərində işıq üzü görüb

Gürcüstanın "Universal" nəşriyyatında gənc alim, Azərbaycan Respublikası Elmi-Tədqiqat Mamalıq Ginekologiya İnstitutunun (ETMGİ) "Ginekologiya" şöbəsinin müdiri, tibb elmləri üzrə fəlsəfə doktoru, dosent Fatma Hacıyevanın "Vərdişi düşüklərdə infeksion markerlərin diaqnostik əhəmiyyəti" adlı beynəlxalq indeksli kitabı rus və gürcü dillərində işıq üzü görüb.




AZƏRTAC xəbər verir ki, elmi kitabın titul səhifəsində "Əsərin 44 günlük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsinə ithaf olunur" sözləri yazılıb.

Kitabın üz qabığında isə Xarıbülbülün təsviri verilib.

Monoqrafiyanı qələmə alarkən Fatma xanım şəxsi praktiki fəaliyyətini nəzəri biliklərlə birləşdirmək qərarına gəlmişdir. Gənc alimin elmi araşdırmaları və tədqiqatları nəticəsində dərc olunan kitab qadınlarda aktual problemlərdən olan - təkrarlanan hamiləlik itkilərinə, bu problemin həllində yeni diaqnostik meyarların aşkarlanmasına, müasir müayinə metodlarının yeni alqoritmlərinə həsr olunub.

Monoqrafiyanın baş məsləhətçisi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu PHŞ-nin baş direktoru, Hamiləlik, doğuş, zahılıq dövrlərində ana və uşaq ölümü və ağırlaşmış doğuş hallarının təhlili üzrə Komissiyanın sədri, "Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək" Assosiasiyasının prezidenti, tibb elmləri doktoru, professor Cəmilə Qurbanovadır.

Elmi əsərin məsləhətçisi isə Azərbaycan Tibb Universitetinin Ginekologiya şöbəsinin müdiri, Mamalıq və Ginekologiya kafedrasının professoru Səadət Sultanovadır.

Qeyd edək ki, kitabın gürcü dilinə tərcümə olunmuş nüsxələri Gürcüstanın əlaqədar səhiyyə təşkilatlarına təqdim olunub.

Elmi əsər qonşu ölkənin mütəxəssisləri tərəfindən maraqla qarşılanıb.

# KİV təmsilçilərinin xidməti vəzifələrini yerinə yetirməsinə mane olan FHN-in əməkdaşı işdən azad edilib

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğından icbari sığorta işinə nəzarət şöbəsinin baş mütəxəssisi, daxili xidmət polkovnik-leytenantı Araz Furqan oğlu Musayev iyunun 3-də Abşeron rayonunun Xırdalan şəhəri, Ş.Qurbanov küçəsi, ev 38 ünvanında vətəndaşların şikayəti əsasında araşdırma aparan kütləvi informasiya vasitələrinin əməkdaşlarının xidməti vəzifələrini yerinə yetirməsinə mane olub və onları hədələyib. O, bununla fövqəladə hallar orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verib. FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bunu nəzərə alaraq, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun ötən gün imzaladığı müvafiq əmrə əsasən, Araz Musayev fövqəladə hallar orqanlarından xaric edilib.




# Koronavirusdan daha 350 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 350 nəfər müalicə olunaraq sağalıb, 108 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkəmizdə 334 min 647 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 326 min 619 nəfər müalicə olunaraq sağalıb, 4936 nəfər vəfat edib. Aktiv xəstə sayı 3092 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 559 min 951 test aparılıb. Dünənki test sayı isə 8331-dir.

# Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 500 mini keçib

İyunun 5-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 47 min 366 doza vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 41631, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 5735 nəfər olub.

İndiyədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 513 min 85-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 581 min 890, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 931 min 195 nəfərdir.




# ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan jurnalistləri

**SİRAC ABIŞOV VƏ MƏHƏRRƏM İBRAHİMOVUN**

Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək şəhid olması xəbərindən hədsiz kədərləndiyini bildirir, onlara Allahdan rəhmət diləyir, ailələrinə, doğmaları və yaxınlarına, habelə əməkdaşı olduqları media qurumlarına dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi Akşin Ziyadova anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı

**MƏHƏRRƏM İBRAHİMOVUN**

erməni terroru nəticəsində həlak olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Televiziyasının əməkdaşı

**SİRAC ABIŞOVUN**

erməni terroru nəticəsində həlak olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5079
Sifariş 967
Qiyməti 40 qəpik